Paralel
www.paralel.az
İctimai-siyasi qəzet
27
iyul
2023-ci il
№ 064 (3633)
Qiymәti 50 qәpik

Gün-Xəbər



## Prezident açılışda iştirak edib

Azərbaycan Prezidenti İlham Əliyev dünən Bakıda “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Şimal” Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və “Şimal” Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edib.

## Rusiya "taxıl dəhlizi"ni bağladı: "Həmrəylik dəhlizi" nə vəd edir?

**Avropa İttifaqı Ukraynanın demək olar ki, bütün kənd təsərrüfatı məhsullarını ”həmrəylik dəhlizi” ilə ixrac etməyə hazırdır.**

Bu bəyanatla Aİ-nin kənd təsərrüfatı üzrə komissarı Yanuş Voyçexovski çıxış edib.

O qeyd edib ki, Rusiya ***"taxıl sazişi"***ndən çıxmamışdan və ***“taxıl dəhlizi"*** bağlanmamışdan əvvəl, Ukrayna ixracının 60%-i ***“həmrəylik dəhlizləri”***, 40%-i isə Qara dəniz vasitəsilə daşınıb.

***"Biz demək olar ki, hər şeyi ixrac etməyə hazırıq. Bu, ayda təxminən 4 milyon ton yağlı və taxıl məhsulu təşkil edir. Biz bu həcmə ötən ilin noyabrında çatmışıq"***, - Voyçexovski bildirib.



# Bir hərbçimiz də intihar etdi



*Azərbaycan Ordusunun daha bir əsgəri özünü güllələyərək öldürüb.*

*Bu barədə Hərbi Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri, Hərbi prokurorun böyük köməkçisi, baş ədliyyə müşaviri Firad Əliyev məlumat verib.*

*Onun sözlərinə görə, Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Əyyubov Telman Məhəmməd oğlunun odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Qubadlı Hərbi Prokurorluğuna məlumat daxil olub. Prokurorluq əməkdaşları daxil olmuş məlumat əsasında hadisə yerinə və meyitə baxış keçirib, eləcə də digər hərəkətlər icra ediblər.*

*F.Əliyev bildirib ki, fakt üzrə Qubadlı Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib. Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.*

## ABŞ və Aİ ilə Rusiya arasında mübarizə qızışır



**Onlar Cənubi Qafqazı Rusiyadan qoparmağa çalışır**

Səh.3

## Mədəniyyət və incəsənətimizin «palatkası»



**Ağlına gələni dilinə gətirənlər**

Səh. 4

## Hələ ümidimiz var...



**Sənət fədailərinin yeri görünür**

Səh. 5



## Çində:

### Rüşvət alan məmur ömürlük həbs edilib

Çin məhkəməsi rüşvət alan məmuru ömürlük həbsə məhkum edib.

“Sinxua” agentliyi xəbər verir ki, Çin Kommunist Partiyasının (ÇKP) keçmiş üzvü Çjou Tszanyun 25 milyon dollara yaxın rüşvət almaqda təqsirli bilinərək, barəsində ömürlük həbs cəzası qərarı çıxarılıb.

Məhkəmə müəyyən edib ki, 2001-ci ildən 2021-ci ilə qədər tutduğu bir sıra vəzifələrdə, xüsusən də İn dairəsi rəhbərinin müavini vəzifəsində olarkən vəzifə səlahiyyətlərindən sui-istifadə edib. Ona müraciət edən şəxslərə və firmalara dövlətə məxsus torpaqlardan istifadə etmək hüququ verib. Məhkəmənin məlumatına görə, bu “fəaliyyəti” nəticəsində 182 mln. yuan (25 mln. dollar) qazanıb. Qərarda o da göstərilib ki, o, öz hərəkətləri ilə dövlətin maraqlarına və vətəndaşlara ciddi zərbə vurub. Bu səbəbdən də maksimal cəza alması istənilib. Törətdiyi cinayətləri etiraf edən Çjou imzalanan müqavilələrdə vasitəçiliyini boynuna alıb.

Qeyd edək ki, onun barəsində cinayət işi 2018-ci ildə başlanıb. Tabeliyində olan şəxslərdən biri Çin Dövlət Nəzarət Komissiyasına onun cinayətləri barədə məlumat verib. Həmin ay ÇKP-nin şəhər komitəsinin katibi vəzifəsindən istefa verib. 2022-ci il yanvarın 27-də isə o, ÇXR KP üzvlüyündən çıxarılıb.

## Bizdə:

### Rüşvət almış məmur azadlığa buraxıldı

Yevlax Şəhər İcra Hakimiyyətinin həbsdə olan sabiq icra başçısı Qoca Səmədov azadlığa buraxılıb.



Bu barədə vəkili Elnur Vəliyev məlumat verib.

Onun sözlərinə görə, bu barədə qərar Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmar Rəhimovun sədrliyi ilə keçirilən prosesdə elan edilib.

Məhkəmə Q.Səmədovun xəstəliyi ilə əlaqədar olaraq cəzasının çəkilməmiş hissəsindən azad edib.

Qeyd edək ki, 2019-cu ilin noyabr ayında Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Q.Səmədov Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat zamanı saxlanılıb.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 7 il 3 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan məhkum apellyasiya şikayəti verib. Şəki Apellyasiya Məhkəməsinin qərarına əsasən, Q.Səmədovun cəzası 6 ilə endirilib.

O, həbsdə olduğu müddətdə 4 dəfə ürəyindən əməliyyat edilib.

## Erməni jurnalist: "Vətəndaşlar kütləvi şəkildə hərbi təlimlərdən imtina edirlər"

**Ermənistanda orduya etimadsızlıqla bağlı maraqlı hadisələr yaşanıb. Araşdırmaçı jurnalist Oskan Sarkisyan bununla bağlı sosial şəbəkələrdə paylaşım edib.**



O qeyd edib ki, bəzi bölgələrdə vətəndaşlar hərbi toplantılarda (təlimlərəd.) iştirak etmək istəmirlər.

*"Tavuş vilayətində 25 günlük hərbi təlim düşərgəsi üçün iştirakçıların qəbulu prosesinə başlanılıb. Nikol Paşinyana, onun hakim partiyasına və hakimiyyət orqanlarına, Müdafiə Nazirliyinə, Baş Qərargaha demək olar ki, etimadsızlıq şəraiti yarnıb. Belə durumda sərhəddə yaşayan kişilər bu hərbi toplantıların iştirakçısı olmaq istəmirlər"*, - tanınmış erməni jurnalist gileylənib.

O qeyd edib ki, hətta konkret olaraq hərbi komissarlıqlardan müraciətlər, təkliflər də gəlir ki, bu toplanışlarda iştirakdan imtina edənlərin bəziləri mühakimə olunsun. Əgər kimsə mühakimə olunsa, bu, hərbi toplantılardan imtina edənlərə dərs olacaq.

*"Lakin Tavuş bölgəsində keçirilən təlimlərdə iştirakdan imtina edənlərə qarşı heç bir məhkəmə prosesi və ya hökm çıxarılmayıb. İlin sonuna kimi 6 belə toplantı olacaq"*, - Sarkisyan qeyd edib.

***Tural Tağıyev***

## Qarabağa qayıdış: İmtina edənləri nə gözləyir?

Dövlət Komitəsi açıqladı

**Qarabağa qayıdış planı çərçivəsində işğaldan azad olunmuş rayonların sakinləri ilə könüllü olaraq İlkin Razılaşma Protokolu imzalanıb. Lakin Protokolu imzalamaqdan imtina edən ailələr də olub. İmtina edənlərin yenidən müraciət edib sözügedən protokolu imzalamaq şansı qalırmı?**

Məsələ ilə bağlı Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinə sorğu göndərdik.



Qurumdan sorğumuza cavab olaraq bildirilib ki, məcburi köçkün imtina etdikdən sonra yenidən işğaldan azad olunmuş ərazilərə köçmək istədiyini bildirərsə və razılaşma protokolunu imzalayarsa, onun köçürülməsinə növbəti mərhələdə baxıla bilər.

Digər bir məsələ Bakıda evlə təmin olunmuş keçmiş məcburi köçkünlər öz yurdlarına qayıtmaqdan imtina etdikləri təqdirdə dövlət tərəfindən verilmiş mənzillərdən çıxarılıb-çıxarılmamasıdır. Dövlətin balansında olan həmin mənzillərin kredit yoluyla orada yaşayan ailələrə satılması barədə fikirlər dolaşır. Bunun əsası varmı? Əgər varsa, o mənzillərin məcburi köçkünlərin mülkiyyətinə verilməsinin qaydaları necədir?

Komitə bu günədək Zəngilan rayonunun Ağalı kəndi, Tərtər rayonunun Talış kəndi və Laçın rayonunun Laçın şəhərinə 236 ailə, 1023 nəfərin köçürüldüyünü xatırladıb: *"Doğma yurdlarına köçürülmüş ailələr əsasən, yataqxana, sanatoriya və digər müvəqqəti məskunlaşma obyektlərində ağır şəraitdə yaşayanlardır. Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar inşa edilmiş qəsəbələrdən işğaldan azad olunmuş ərazilərə kütləvi köç həyata keçirilməyib. Bu günədək bir neçə qəsəbədə məskunlaşmış ailələr doğma yurdlarına köçürülüb ki, onların da dövlətə təhvil verdiyi mənzillər məcburi köçkün şəhid ailələri və müharibə iştirakçılarına verilib.*

*Qeyd edək ki, məcburi köçkünlərə inşa olunmuş qəsəbələrdəki mənzillər xüsusi təyinatlı yaşayış sahələrinin kirayə müqaviləsi əsasında ödənişsiz olaraq, onların müvəqqəti istifadəsinə verilib. Boşalmış mənzillərin sonrakı müqəddəratı dövlətin qəbul etdiyi qərarlardan asılı olacaq.*

*Dövlətin mənzil Fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin kreditlə satılması ilə bağlı isə məlumat yoxdur".*

***Yeganə Oqtayqızı***



## Maldivə getdi mandatın itirdi

Ukrayna parlamentinin Milli təhlükəsizlik, müdafiə və kəşfiyyat komitəsinin sədr müavini Yuri Aristovun ətrafında ciddi qalmaqal yaranıb.

Ukrayna mətbuatında deputatın müharibənin qızğın vaxtında Maldiv adalarında ailəsilə istirahət etdiyinə dair dərc edilən materiallar ona qarşı cinayət təqibinə səbəb olub.

Məlum olub ki, ukraynalı deputat iyul ayında xidməti ezamiyyət çərçivəsində üç günlüyə Polşaya gedib. Lakin oradan Kiyevdəki xəstəxanalardan birindən özü üçün əlavə 10 günlük xəstəlik arayışı alıb. Ukraynada qanun səviyyəsində vəzifəli şəxslərin müharibə zamanı ölkəni tərk etməsinə qadağa qoyulduğu üçün deputat Aristov bu saxtakarlığa əl atıb və həmin müddəti ailəsi ilə birgə Maldiv adalarında keçirib.

Fakt mətbuata çıxandan sonra Baş prokuror ona qarşı cinayət təqibinə dair qərar verib. Deputatın evində axtarış aparılıb və xarici pasportunda doğrudan da Maldiv adalarında olduğuna dair möhürlər aşkarlanıb. Həmçinin, onun xəstəlik kağızı ilə bağlı saxtakarlıq etdiyi üzə çıxarılıb.

Hakim “Xalqın qulluqçusu” partiyasını təmsil edən Aristovun bu əməlinə partiya tərəfindən kəskin reaksiya verilib və o, parlamentdəki fraksiyadan kənarlaşdırılıb. Deputatın özü isə mandatından imtina etdiyini bildirib.

## Evlərin ən çox girov qoyulduğu bölgələr

2023-cü ilin yanvar-iyun ayları ərzində ölkədə mənzillərin ən çox girov qoyulduğu ərazilər Bakı, Abşeron və Sumqayıtdır.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən bildirilib ki, girov qoyulan mənzillərin 93 faizi bu üç ərazi idarəsinin payına düşür. Mənzillərin ən az girov qoyulduğu bölgələr isə 9 saylı Qəbələ (dörd müqavilə), 14 saylı Şamaxı (12 müqavilə) və 18 saylı Zaqatala (15 müqavilə) ərazi idarələridir.

Fərdi yaşayış evlərinin ən çox girov qoyulduğu bölgələr 2023-cü ilin ilk altı ayı ərzində girov qoyulan fərdi yaşayış evlərinin sayına görə də Bakı ilk yeri tutur. Bununla belə, bölgələrdə də bu kateqoriya üzrə aktivlik müşahidə olunur. Belə ki, bölgələrdə fərdi yaşayış evlərinin ən çox girov qoyulduğu ərazilər 3 saylı Gəncə, 5 saylı Xaçmaz, 7 saylı Bərdə və 10 saylı Lənkəran ərazi idarələrinin əhatə etdiyi rayonlardadır.

# XANKƏNDİDƏ “HAKİMİYYƏTİ” ƏLƏ ALMAQ VƏ AZƏRBAYCANLA RAZILAŞMAQ...

## Erməni generalın planı açıqlandı

Qarabağdakı qondarma qurumda “hakimiyyət” uğrunda çəkişmələr davam edir. Mübarizə



əsasən Rusiyanın emissarı, milyarder Ruben Vardanyanla Araik Arutunyan və başının dəstəsi, eləcə də qondarma qurumun sabiq “dövlət naziri” Ermənistan ordusunun general-leytenantı olmuş Samvel Babayan arasında gedir.

Ermənistanın “Hraparak” qəzeti Samvel Babayanın Xankəndidə “hakimiyyəti” ələ almağı planlaşdırdığını yazıb. Qəzet bildirir ki, bir neçə ay əvvəl Xankəndidə kütləvi mitinq keçirib, “haklimiyyəti” devirmək istəyən, lakin buna nail ola bilməyən Babayan yenidən tərəfdarlarını səfərbər edib.

Xəbərdə qeyd olunur ki, Babayan Arutunyan “hakimiyyətinin” nümayəndələri ilə danışıqlar aparır: “Babayan Araik Arutunyana çatdırır ki, yenidən “dövlət naziri” vəzifəsini tutmağa və əhalini Azərbaycanın təklif et-



diyi Ağdam yolu ilə ticarət etməyə razılaşmağın doğru olduğuna inandırmağa hazırdır. O, hamını inandırır ki, “hakimiyyətə” gəlsə, “ordunu” qısa müddətdə bərpa edə bilər”.

Qeyd edək ki, Babayan bundan öncə də Xankəndidəki qondarma qurumun Bakı ilə birbaşa danışıqlara getməsinin tərəfdarı olduğunu bəyan etmişdi və buna görə hətta onun Nikol Paşinyanın tapşırığı ilə işlədiyinə dair iddialar ortaya atılmışdı. İndi isə “Hraparak”-ın yazdığından bəlli olur ki, Babayan Azərbaycanın Qaqrabağdakı ermənilərə Ağdam yolu ilə bağlı təklifinin qəbul edilməsinin tərəfdarıdır.

Lakin onun separatçı qurumun “ordusu”nun bərpasına dair fikirlərilə Bakı ilə birbaşa danışıqlar və Azərbaycan hakimiyyətinin təklifləri ilə razılaşmağa dair mövqeyi bir-birilə ziddiyyət təşkil edir. Azərbaycan Qarabağda bir nəfər də əli silahlı erməninin mövcudluğunu qəbul etmir və edə də bilməz. Ona görə də “ordunun bərpası” ilə bağlı fikirlər puç və mənasızdır.

Hər necə olsa, Babayan Bakı ilə dialoqun və hansısa razılaşmalara getməyin tərəfdarı kimi tanınır. Lakin Moskvanın göndərdiyi Vardanyan və hazırkı qondarma qurumun rəhbərliyində olanların əhəmiyyətli hissəsi bunun əleyhinədir. Bütün bunlar isə onu deməyə əsas verir ki, Azərbaycan separatçıların daxilindəki çəkişmələrdən asılı olmayaraq, nəhayətdə Qarabağın nəzarətimizdən kənar olan hissəsini də həm “sülhməramlılar”dan, həm də separatçılardan “təmizlənməsi” istiqamətində fəaliyyətini davam etdirməlidir.

**C.Məmmədov**

---



Tapdıq ABBAS
Təsisçi,
“Əməkdar mədəniyyət işçisi”,
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru

# ABŞ və Aİ ilə Rusiya arasında mübarizə qızışır

## ABŞ və Avropa İttifaqı Cənubi Qafqazı Rusiyadan qoparmağa çalışır

Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda diplomatik mübarizəsi davam edir. Lakin düşmən Ermənistan iqtisadi və hərbi baxımdan Azərbaycandan bir neçə dəfə geri qalsa da, 2020-ci ildə 44 günlük Vətən müharibəsində darmadağınla məğlub olsa da, Fransa, ABŞ, Rusiya kimi, inkişaf etmiş, güclü xristian dövlətlərinin və güclü erməni lobbisinin təsirilə Azərbaycanın təklif etdiyi sülh müqaviləsini imzalamır və düşmənçiliyi davam etdirir.

İndiyə qədər Cənubi Qafqazı Rusiyanın nəzarətindən çıxarmaq üçün məqam axtaran ABŞ və Avropa İttifaqı Rusiyanın Ukraynaya hərbi təcavüz nəticəsində zəifləməsindən istifadə edərək, Cənubi Qafqazda Rusiyanın uzun illər ərzində yaratdığı Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsini həll etməyi öz nəzarətinə götürməyə çalışır.

Amma Rusiya Ukraynada ağır hərbi-iqtisadi itki versə də, Cənubi Qafqazı ordusunun nəzarətində saxlayır, hərbi təxribatları davam etdirir, Ermənistanla Azərbaycan arasındakı çoxillik münaqişəni qızışdırmaqla məşğuldur.

Fikir verin, ABŞ və Avropa İttifaqı Azərbaycan və Ermənistan XİN rəhbərlərini Vaşinqtona və Brüsselə dəvət edib, iki dövlət arasında sülh sazişi bağlamaq üçün danışıqlar apardığı zaman Rusiya və İran Cənubi Qafqazda, xüsusən Qarabağ bölgəsində hərbi təxribatları gücləndirməklə, bölgədə sabitlik yaranmasına imkan vermirlər. Əgər diqqət etmisinizsə, hər iki ölkənin XİN rəhbəri ABŞ və Aİ tərəfindən danışıqlara başlayanda, dərhal Rusiya hər iki ölkə ərazisində yerləşdirdiyi hərbi-siyasi qüvvələri hərəkətə keçirir, regionda münaqişəni qızışdırır, Vaşinqtonda və Brüsseldə Azərbaycanla Ermənistan rəhbərləri arasında aparılan sülh danışıqlarında əldə olunan bəzi razılaşmaların reallaşmasına mane olur.

Qardaş Türkiyə prezidenti R. T. Ərdoğanın dəvətilə Türkiyəyə səfər edən Ukrayna prezidenti Volodimir Zelenskilə görüşdən sonra, Ərdoğanın Rusiyadan alınan hərbi əsirləri, ”Azovstal”ı müdafiə edən hərbçiləri Ukraynaya verməsi və Vilnüsdə keçirilən NATO zirvəsində Ukraynanın NATO-ya üzv qəbul olunması təklifini müdafiə etməsi Rusiyanı qardaş Türkiyəyə və Azərbaycana qarşı möhkəm qızdırıb.

Son zamanlar Rusiya XİN sözçüsü Mariya Zaxarovanın verdiyi kəskin bəyanatlar, Putinin sözçüsü Peskovun Qara dəniz vasitəsilə bağlanmış ”taxıl sazişi”nin dayandırılması barədə açıqlaması, Dövlət Dumasının deputatı Pyotr Tolstoyun Azərbaycanın ünvanına söylədiyi təhqir və hədələr, Xankəndində yerləşən Rusiya sülhməramlı hərbçilərin Azərbaycan bayrağını ayaqlar altına atıb, təhqir edilməsi, Laçında qurduğumuz sərhəd-keçid məntəqəsini ləğv etmək barədə səslənən fikirlər göstərir ki, Rusiya Türkiyə və Azərbaycana qarşı bərk qəzəblənib.

Türkiyə prezidenti R. T. Ərdoğan çox haqlı olaraq, Rusiyaya qarşı zidd addımlar atır, çünki Rusiya Qarabağda üzərinə götürdüyü öhdəliyə əməl etmir, Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin 10 noyabr 2020-ci ildə imzaladığı üçlü bəyənatda əks olunmuş, Azərbaycanın lehinə olan müddəalara məhəl qoymur və ölkəmizin ərazi bütünlüyünü təmin edən Ermənistanla sülh sazişinin bağlanmasına təxribatlarla imkan vermir.

Rusiyanın hədələrinə baxmayaraq, Azərbaycan prezidenti cənab İlham Əliyev həyata keçirdiyi xarici siyasətə uyğun olaraq, aralarında müharibə gedən Rusiya və Ukraynaya bərabər münasibət göstərərək, hər iki ölkə arasında mövcud olan dostluq və qarşılıqlı əməkdaşlığı yüksək səviyyədə qoruyur. Azərbaycan prezidentinin mütəmadi olaraq, Ukraynaya humanitar yardım göndərməsi və bu yaxınlarda 7,6 milyon manat yardım etməsi, deyəsən Rusiya rəhbərliyinin xoşuna gəlməyib.

Azərbaycan prezidentinin Birinci Şuşa Qlobal Media Forumunda iştirak edən yüzdən çox xarici ölkə jurnalistlərinin və xeyli ölkə yazarlarının suallarını ingilis, rus və azərbaycan dilində mükəmməl, geniş və əhatəli cavablarla əsaslandırması hazırda dünya ictimaiyyətinin diqqət mərkəzindədir. İki gün ərzində, yəni 22 iyul Milli Mətbuat Günü ilə bağlı keçirilən Birinci Şuşa Qlobal Media forumunun yaratdığı əks-səda dünya mediasının gündəmində yer alır.

Rusiya, İran və digər düşmən dövlətlər Azərbaycanın beynəlxalq diplomatik siyasətinə qarşı xaricdə mübarizə apardıqları kimi, ölkəmizin daxilində də pozuculuq işləri aparırlar. Xüsusən Rusiyanın Azərbaycanda yerləşdirdiyi 5-ci kalon ölkənin daxilində getdikcə daha sərt təxribatlara əl atır, rüşvətxorluğu, narkomaniyanı, qiymət artımını sürətləndirməklə, xalqı hakimiyyətə qarşı qldırmağa çalışırlar.

Siyasi ekspertlərin açıqlamasına görə, çox sayda hakimiyyətin müxtəlif qollarına soxulmuş ”rusbaşlılar” Azərbaycandan daha çox Rusiyanın mənafeyinə xidmət edirlər. Doğrudur, həm xarici, həm də daxili siyasətdə Rusiyanın maraqlarını nəzərə almadan, ölkəni sabit idarə etmək asan deyil. Amma xalqı ac qoyub, ölkənin sərvətlərini Rusiyaya və digər xarici güclü ölkələrə vermək olmaz, ataların sınaqdan çıxardığı və miras qoyduğu ”ac qılınca çapar” ifadəsini unutmaq bizə baha başa gələ bilər...

Qarabağ, Azərbaycandır!

## Mədəniyyət və incəsənətimizin «palatkası»



Nigar Orucova

Ona belə deyəndə çoxunun xətrinə dəyir. Deyirlər ki, palatka yox, çadır. Amma çadır desək, bu, toy deyil, yas anlamı ifadə edər. Zatən, sözün mənasına ilk diqqətdə də nədənsə, toy deyil, əksi ağla gəlir.

Ağlına gələni dilinə gətirənlərin, ya da yazılı ədəbiyyata sırıyanların zəmanəsində yaşayırıq. Çox az adam dilinin təmizliyinin qayğısına qalır. Dil özü isə belə sanaq, saf bir uşaqdır, onu necə, nəyə öyrətsək, elə də var olacaq. Dilin təmizliyi də əxlaq məsələsidir.

Şifahi danışıqdan daha vacibinin yazı dili olduğunu unudanların zəmanəsində yaşayırıq. Bu uzun cümlə birbaşa hədəfə keçməmək demək deyil. Dilin ağırlığının insanı necə halsız vəziyyətə saldığını göstərmək üçün belə yazdım. Amma o cümlənin mənasıdır digər məqsədim. Doğrudan da, niyə inkişaf, sürət və s.əsrində bir neçə addım irəli getməkdənsə, biryolluq geri düşməliyik?

Dilimizdən bəlaya düşməyin analoqu olmayan gündəmində çabalayırıq. Keçənlərdə, ötənlərdə dilin qrammatikasını elmi şəkildə bilməyən az adam vardı. Onlara da nədənsə savadsız adam deyilirdi. Həmin adamların haqqına girənlər indi bilirsiniz kimlərdir? Ən azı bir universitet bitirib, bir neçə yerdə çalışan, lakin dilin qayda-qanununu yeri gəkdikcə pozan ”savadlı”lar. ”Lar” dedim, bəli, onlar çoxdu, hər addımda səhv edə-edə, kobud ambisiyaları ilə zərifdən-zərif olan dilimizə qənim kəsiliblər.

Ən pisi də odur ki, səhvi edən, səhv yazan hansısa kənar sahənin deyil, elə dilçidir, alimdir, filoloqdur...

Bir neçə məşhur həmkarımın yazısında tapdığım müxtəlif səpkili səhvləri sadalasam, onda gərək oxumağa düz-əməlli bir cümləsi qalmasın. Amma çox ambisiyalıdılar, el arasında deyildiyi kimi ”adı qulağına çatıb”. Qulağındakı da gözü örtəndə baxmağa yer qalmır. Elə ona görə də sıravi bir şəxsin düzgün yazdığı sözdən də nəticə çıxarmır, qələm əhlinin dilə yabançılığının nə demək olduğunun məsuliyyətini dərk etmir. Dərk etməyənlərin bolluğundandır ki, bağlayıcı ilə ədatın, qoşasaitli və samitli sözlərin və s.fərqi görünmür, bilinmir. Hədd gözlənmir, sərhəd yoxdur. Hər şeyin sərhədi pozulduğundan, kim nə istəyir edir, deyir, danışır, yazır...

Bu barədə başqa bir vaxt geniş yazaram. O vaxt ki, kimsə öyrənmək istəsin, düzgünü tətbiq etsin. Doğrusu, əziyyətimizin bəhrəsinin min il sonra da olmayacağı təəssüfünü yaşamaq istəməzdim. Səhvlərlə dolu həyatdan səhv nəticə çıxaranlar da özünü sığortalamasın. İrəli getmiş kimi özünü göstərməkdənsə, hərdən geriyə də çevrilsinlər. Gerideqalmış zənn etdikləri dövrdən nümunə götürsünlər. Ya da ibrət...

Etməsələr, sivil cəmiyyətlərin onlara verəcəyi qiymət yalnız bu olacaq - töhmət.

# Fransa vətəndaşının və bizim ictimai şüurumuz...

## "Fransa xalqı keyf eləyir..."

İnkişaf etmiş ölkələrdə, hətta tullantıya qarşı münasibət belə, yüksək səviyyədə inkişaf edib, bu məsələyə yönəlik xüsusi ictimai şüur formalaşıb. ”Liberal İqtisadçılar Mərkəzi” İctimai Birliyinin həyata keçirdiyi ”Təbiətdə zibil yox, tullantı - xammal var” layihəsi çərçivəsində inkişaf etmiş ölkələrin tullantıları toplamaq və daşımaq təcrübəsini bölüşməyə çalışacağıq. Bu yazıda Fransa cəmiyyətinin tullantıya münasibətindən söhbət açacağıq. Fransada yalnız paytaxt Paris şəhərində deyil, ölkənin bütün digər şəhər və qəsəbələrində, hətta, kəndlərində belə, ideal təmizlik hökm sürür. Paytaxtda təmizlik o səviyyədədir ki, ilk dəfə Paris şəhərində qonaq olan əcnəbilər tullantı-toplanış məntəqələri ilə avtomat-oyun mərkəzlərini dəyişik sala bilirlər. Onlar bir-birindən yalnız üstündəki işarələr və yazılarla fərqlənirlər. Göz oxşayan tullantı konteynerlərinin yanından keçərkən isə siz yayin cırhacırında belə, heç bir xoşagəlməz qoxu hiss etməyəcəksiniz.

Saytlarda, qəzetlərdə və küçə banerlərində kommersiya reklamlarından daha çox tullantıların toplanması və digər sosial-maarifləndirmə reklamlarına rast gəlinir. Belə sayt reklamlarından birində oxuyuruq: ”Tullantıların toplanması üçün yerli sistemi öyrənmək, Fransadakı yeni mülkünüzə köçərkən, asanlıqla gözdən qaça bilən vacib məsələlərdən biridir. Tullantıların götürülməsi cədvəlləri və tədbirlər - tullantı vergilərindən tutmuş, təkrar emalla bağlı qayda və öhdəliklərə qədər hər şeyi, o cümlədən Fransada tullantıların yığılması haqqında qaydaları bilmək vacib məsələlərdəndir.

Fransada tullantıların toplanması ilə məşğul olan xidmətlər şirkəti kommunalar adlanır. Tullantının toplanması Fransanın əksər şəhərləri, qəsəbələri və kənd yerlərində yerli kommunallar tərəfindən təşkil edilir. Tullantıların toplanması adətən həftədə bir neçə dəfə baş verir və kommunallar tərəfindən tullantıların yığılma günləri göstərilməklə, illik və ya iki illik təqvim verilir. Bu təqvimlər ildən-ilə, hətta, bəzən bir il ərzində də dəyişə bilər. Təqvimlər adətən hər evə paylanır. Tarixləri izləmək və tullantı qutularınızı lazım olan gündə, düzgün yerə qoymağı təmin etmək ev sahibi və ya kirayəçi kimi sizin məsuliyyətinizdir.




Kəndin, qəsəbənin, şəhərin ölçüsündən və təşkilindən, tullantıların yığılması ehtiyacından və atılma məntəqəsinin uzaqlığından asılı olaraq tullantılar həftəlik və ya daha qısa müddətdə aparıla bilər.

Əksər kommunallar hər bir əmlak üçün pulsuz tullantı qutuları təmin edir (bəzi kommunallar sizdən bunları satın almanızı tələb edə bilər). Mənzillər və ya mülk sahibləri adətən kommunal tullantı qutularını yerləşdirmək üçün otaq və ya açıq sahə təmin edir. Daha ucqar kənd yerlərində, həmçinin mərkəzi yerlərdə təyin olunmuş tullantıların ümumi toplanma sahələri və ya bir neçə mülkə xidmət edən daha böyük, çoxsaylı qutular qoyula bilər.

Ərazinizdə tullantıların toplanması xidmətləri və cədvəlləri haqqında öyrənmək üçün yerli bələdiyyə ilə əlaqə saxlamalısınız”.

Bu cür maarifləndirici vasitələrə siz Fransanın hər yerində rast gələ bilərsiniz.

Monitorinqlər zamanı Fransanın Marsel şəhərində təhsil alan bir azərbaycanlı tələbə ilə təsadüfən həmsöhbət olduq. Bakıya yay tətilinə gələn tələbə Marsel şəhərindən 150 km kənarda yerləşən bir kənddə kirayədə qalır. Ailə kifayət qədər varlı olub və həmin tələbəni evində ödənişsiz olaraq saxlayır. Hətta, ailə tələbənin kommunal xərclərini də öz üzərinə götürüb. Həmin tələbə bizimlə söhbətində çox maraqlı bir əhvalat danışdı: ”Bir gün ev sahibinin əlində süşə və plastik butulka, həmçinin bir neçə karton qutu gördüm. O, həyətin bir tərəfində butulkaları yerə qoyub, karton qutuları açaraq bir list halında, səliqə ilə üst-üstə yığdı. Daha sonra o, butulkaları və karton listlərini götürərək evin arxasına keçdi. Bu prosesi bir ay ərzində dəfələrlə izlədikdən sonra ev sahibinin bu işi mənim ciddi marağıma səbəb oldu. Bu mənim üçün həm də ona görə maraqlı idi ki, ev sahibinin kifayət qədər yüksək imkanlara sahib olduğunu bilirdim. Onun böyük qarajı və bahalı maşınlar kolleksiyası var idi. Mənə təəccüblü gəlirdi ki, yəni bu qədər imkanı olan adam butulka, karton, dəmir yığıb satır? Maraq güc gəldi və bu barədə məni evində pulsuz saxlayan ev sahibindən soruşdum. O, mənə bildirdi ki, həmin tullantıları yığaraq yerli bələdiyyəyə təhvil verir. Bələdiyyə isə həmin tullantıları firmalara sataraq gəlir əldə edir. Bu yerdə ev sahibinə sual verdim ki, bunları bələdiyyəyə pulsuz verməkdə sizin marağınız nədir, bələdiyyənin gəlir əldə etməsindən sizə nə fayda? Kişi gülümsəyərək oturdu və bunları dedi: ”Necə yəni bələdiyyənin gəlir əldə etməsindən mənə nə fayda? Bizim bütün yerli problemlərimizi bələdiyyələr çözür, aradan qaldırır. Onların büdcəsinin artması, genişlənməsi bizim problemlərimizin daha səmərəli həll edilməsi deməkdir. Ona görə də hərə bacardığı qədər bələdiyyənin büdcəsinin artmasına yardım edir - ianələr də veririk. Kənddə mənim kimi belə tullantıları toplayan çoxlu sayda sakinlər var və bələdiyyələr də onları tanıyır. Ayda bir dəfə gəlib, yığılan tullantıları aparırlar. Hər ay bələdiyyə sakinlərdən pulsuz aldığı tonlarla karton, plastik, şüşə və dəmir tullantılarını sataraq müəyyən miqdarda gəlir əldə edir. Həmin vəsaitlər kəndimizin hər hansı bir probleminin həllinə xərclənir ki, bu da bizim cəmiyyətə töhfəmizdir”.

Bəli, bu kifayət qədər imkanı olan Fransa kəndlisinin düşüncəsidir. Bəs bizdə necə, bu varlı fransız kəndlisi kimi düşünən kimisə tapa bilərikmi?

***Dəniz Nəsirli***

***Yazı Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə, "Təbiətdə zibil yox, tullantı - xammal var" layihəsi çərçivəsində hazırlanıb.***

***Yazida əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.***

# Hələ ümidimiz var...

## Sənət fədailərinin yeri görünür

“ Ayə, ay camaat, bu kino ki, var, bu çox qəliz məsələdir. Həm qəlizdir, həm də ki, vacib”.

Yazıya Azərbaycan kino və teatr aktyoru, əməkdar artist, ölməz sənətkarımız rəhmətlik Səməndər Rzayevin “Bəyin oğurlanması” filmindəki sovxoz sədri rolunda səsləndirdiyi sözlərlə təsadüfü başlamadım. Həqiqətən də kino nə qədər qəliz və mürəkkəb bir sənət olsa da, eyni zamanda vacib sahədər. “Bəyin oğurlanması” filmi kino işçilərinin fəaliyyətindən bəhz etsə də, filmin əsas sujet xətti, məqsədi, kənd həyatının zəngin ənənələrini və maraqlı adətlərini tamaşaçıya göstərməkdən ibarətdir. Olduqca maraqlı və əyləncəli olan bu film, hər şeydən əvvəl insan səadətini, bu səadət uğrunda aparılan mübarizəni əks etdirir.

Azərbaycan kinosunun tarixi 1898-ci ilin avqust ayının 2-də Aleksandr Mişonun *“Qafqaz rəqsi”* sənədli filmi, *“ Bibiheybətdə neft fontanı”* və bir sıra digərləri ilə başlayıb. Elə buna görə də 2000-ci ildə, avqust ayının 2-si kino işçilərinin peşə bayramı - *“Azərbaycan kinosu günü”* kimi qeyd edilməsinə sərəncam verildi. Həmin gün milli kinonun yaranma tarixi sayılır.

Milli kinomuzun yaranmasından çox danışmaq, çox yazmaq olar, lakin bu sənətin keçmişini bilməyən yoxdur.

Təxminən 125 illik tarixi olan Azərbaycan kinosu müstəqillik qazandığımız vaxtadək dünya kinosu ilə demək olar ki, eyni sıradaydı. Yəni çəkisini qoruyub saxlayaraq həmin yüksəklikdə durmağı bacarırdı. Təxminən 1990-cı illərə qədər kinomuz keçdiyi ağır sınaqlı, keşməkeşli yollara rəğmən, bir əsrdən çox bir zaman dilimində qürurlu mövqeyini dəyişməmişdi. Bu ondan irəli gəlirdi ki, kino sənətinin həmin dövrdəki yaradıcılarının mayasında azərbaycançılıq məfkurəsi var idi. Kinomuz yarandığı zamanlardan düşmən qüvvələr nə qədər çalışsalarda ki, əllərinə keçən ilk fürsətdə yıxsınlar, lakin milli düşüncəyə və vahid dövlətçiliyə söykənən bu sənət fədailəri buna imkan vermirdilər.

Hər bir sahədə olduğu kimi, mərhələli inkişaf yolu keçmiş kino sahəsinin də yaranmasında və ərsəyə gəlməsində məqsəd maarifləndirmədi. Çünki hər bir sənət mütləq, birmənalı şəkildə, yarandığı cəmiyyətin inkişafına, milli düşüncəyə, dövlətə və dövlətçiliyə xidmət etməlidir. Hər birimiz bunu bir şüar kimi, gücümüz daxilində, Azərbaycan insanlarının, xalqımızın, millətimizin arasında mütəmadi şəkildə yaymalıyıq və bu fikirin onların yaddaşlarında həkk olması yönündə hərəkət etməliyik. Amma bunu nə qədər edirik və ümumiyyətlə edə bilirikmi sualı ətrafında insanlar zaman-zaman çox düşünür, ortaq məxrəcə gəlməyə çalışırlar.

Bu sahədən çox danışılıb, çox yazılıb deyə, tarixini, keçmişini bilməyən yoxdur. Ona görə də milli mədəniyyətimizin dünyaya tanıdılmasında böyük rolu olan bir təbliğat vasitəsinin bugünündən danışmaq məncə daha məqsədəuyğundu.

Dostlar, yoldaşlar arasında Azərbaycan televiziyasından söz düşüb danışanda hərə bir cürə ifadə edir burdakı vəziyyəti. Növbə mənə çatanda ki, mən də bir tamaşaçı kimi öz fikirlərimi söyləyim, onda ən çox keçmişdə maraqla izlədiyimiz filmlər, tamaşalar yadıma düşür. Xoş xatirələrlə yaddaşımda iz buraxan televiziyamızın keçmişini bugünkü ilə müqayisə etmək çətin gəlir adama.

Çünki vaxtaşarı qınaqlara, tənqidlərə, tövsiyələrə baxmayaraq, televiziyalarımızda cəmiyyətin mənəvi inkişafına mənfi təsir edən verilişlərin sayı artır ki, azalmır. Yəni daha yığcam ifadə etsək, böyük təsir vasitəsi olan televiziya yarıtmaz kollektivi ilə kiçik işlərlə məşğuldur.

Maraqlıdır ki, tv rəhbərləri özləri də bilirlər ki, bayağı verilişlərlə televiziya reytinqini yüksəldə bilməz. Məsələnin təəccüb doğuran tərəfi də var. Elə bil bu rəhbərlər heç papaqlarını qarşılarına qoyub fikirləşmirlər ki, nə sənət yüngül musiqidən ibarət deyil, nə də, bu ölkə müstəqilliyini ona görə əldə etməyib ki, böyük təsir vasitəsi olan televiziya səviyyəsiz müğənniciklərin reklamına xidmət edə, vaxtını keçirə. Sənət ədəbiyyat, heykəltəraşlıq, rəssamlıqdır, musiqi adı altında lazımsız dınqıltının təqlidi deyil axı.

Heç olmasa arada bir MM-in hazırladığı qanunlara nəzər salıb, deyilənlərə riayət oluna...

Bəlkə də Milli Məclisin hazırladığı qanunda göstərilən müddəalar telekanal rəhbərliyinə göndərilsə vəziyyət müsbətə doğru dəyişər. Və gələcək nəslin inkişafı üçün maarifləndirici verilişlərin sayı artar, “çal oynasın, vur çartlasın”lara son qoyular. Yenə heç olmasa bizlər vaxtında istədiyimizi görə, eşidə, ala bilmişik. Gələcək nəslə yazığınız gəlsin, belə inkişaf olmaz! Yarışma keçirməyə bu qədər meyillisinizsə, onda qoy bu yarış millimənəvi dəyərlərimizin təbliğatı istiqamətində keçirilsin.Vətənpərvərlik ruhunda verilişlərin sayı artırılsın. Daha o verilişlər millət yatandan sonra, gecə saat 2-də, 3-də verilməsin. Çünki bunun da xeyiri yoxdu.

Amma nə yazıqlar, hələ ki, görünən odur ki, bu sahəyə rəhbərlik edənlərin məqsədi xalqa xidmət etmək deyil. İllərdir bu mövzunun müzakirəsi hökumət masasına qədər gedib çıxsa da, vəziyyət dəyişməz olaraq qalır.

Dərd bir olsa nə var ki... acınacaqlı tərəflərimizdən biri də televiziyalarımızda öz məhsulumuzun olmaması, ayrı-ayrı ölkələrin tanınmış televiziyalarının sosial xarakterli verilişlərinin təqlid edilməsidir. Öz məhsulumuz reytinq xatirinə ailə - məişət yükünün ağırlığından doğan gözü yaşlı insanların ekranlara çıxarılması, acı gülüş doğuran şou xarakterli şit verilişlər, heç bir məna kəsb etməyən “tamaşalar”dır. Azərbaycan ailəsindəki qadını yalnız ərinin üstünə bozaran obrazda göstərən ssenarilər əsasında çəkilən seriallar isə içimizdəki erməni xislətlilərin məhsuludur. Bunların hamısı birbaşa milli - mənəvi dəyərlərimizi kölgədə qoymağa hesablanmış əməllərdir.



Hələ ekranları zəbt etmiş “həftəbecər kulinarlar”ın bozbaşı, dolmanı, küftəni təqdim etməklərini demirəm, sanki beş min illik tarixi olan Azərbaycan xalqı mətbəxindən bixəbərdi.

Etiraf edək ki, qonşu dövlətlərin televiziyalarını izləyəndə ruhumuz dincəlir. Ona görə ki, burada ixtisaslaşma var, müxtəlif sahələrin ətrafında aparılan tədqiqatlara uyğun təqdimat var.

Məsələn, qardaş Türkiyənin televiziyalarında bu gün qlobal məsələlərin təhlili gedir. Bu təhlillərə baxandan sonra, Azərbaycanda elmli, təcrübəli, yol göstərən işıqlı insanların olmasına şəxsən şübhəylə yanaşıram. Bilirsiz bu şübhə hardan doğur? Bu gün müəllimin, həkimin və bütün peşə sahiblərinin hər birinin mükəlləf əsgər olması gərəkən bir vaxtda, insanların hər an xəbər gözlədiyi televiziya ekranlarını ziyalılarımız, zəngin dünya görüşlü insanlarımız deyil, danışığını, hərəkətini, oturuşunu, duruşunu, geyimini normal qaydada tənzimləyə bilməyən “həftəbecər gülbiçələrin” zəbt etməsindən doğur... Bax, dediyim şübhənin kökü burdadır. Bu bizim faciəmizdir!

Bəli, hələ də Azərbaycan televiziyasında bəşəriyyətin bu günü, sabahı və gələcəyi ilə bağlı dünya səviyyəli alimlərin fikirlərini özündə ehtiva edən analitik verilişlərimiz yoxdur. Oxşadırlar, lakin yeniliyi ehtiva etməyən, çeynənmiş şablon kəlimələri əzbərləmiş, gözümüzü mazol etmiş bir sıra insanların məzmunu bəlli olmayan fikirləri artıq insanları çoxdan yorub...

**Bu da digər faciəmizdir!**

Yenə qonşulardan misal gətirmək məcburiyyətindəyəm. Onların şousu, moosu ayrıca adıməlum kanallarda təqdim olunur. Bizdə isə kanallar universaldır, guya hər şey var, amma əslində heç nə yoxdur. Biz yola gədərik, lakin unutmayaq ki, çəkilməsi ağır olan dərdimiz gələcək nəsllərin üzərindədir.

Televiziyanın qəzet və radiodan fərqi vizual olaraq, xəbər etmədən bütün evlərə daxil olmasıdır. Sürətlə inkişaf edən texnoloji dəyişikliklər dünyanı ovucumuza sığacaq qədər kiçildib. Artıq bu informasiya vasitəsi qonaq “batman”ından çıxmış ailə üzvü kimidir.

Əgər bu vasitə evimizə qədər gəlibsə, deməli ona olan tələbat ödənməlidir. Amma məsələnin digər tərəfi var. Televiziya tələbatı ödəməyə cəhd etdikcə, yaradıcılıq mühitinin səviyyəsi aşağı düşür, bayağılıq artır, nəticədə idarəolunmaz xaos yaranır. Səbəb tamaşaçı auditoriyasının yaş fərqi, cins fərqi, sosial statusudur və sairə.

**Təsirin yanlış üzü...**

XX əsrin ən böyük icadlarından olan televiziyada təqdim olunan proqramlar istər böyüklərə, istər uşaqlara bir çox tərəfdən təsiretmə gücündədir. Əslində fikirim burada olan bütün proqramları zərərli olaraq dəyərləndirmək deyil.

Məsələn, elə serial var şiddət xarakterlidir, gənclərin mənfi hisslərini oyadıb hərəkətə gətirir, nəticə göz qabağındadır, cəmiyyətdə şiddət artmaqdadır.

Əvvəllər senzura adlı dövlətin kütləvi informasiya vasitələrinin məzmunu və yayılması üzərində nəzarət edən bir qurum var idi.

Bu, söz, mətbuat və informasiya vasitələrinin dövlət, ictimayyət və digər ictimai müəssisələrin maraqlarına uyğun məhdudlaşdırma forması kimi qəbul olunsa da, indiki tv məkandakı özbaşınalıqdan çoxçox yaxşıdır.

Hamımız bilirik ki, filmlərdəki qəhrəmanların milyonlarla gəncin xarakterini formalaşdırmasında güclü təsiri var. Bu gün əgər rola girmiş modelin, aktyorun alovlu və saxta həyatı reklam olunub normal həyat tərzi olaraq göstərilirsə, Azərbaycan ailəsinin pul, intiqam və mövqe üçün hər şeyi riskə atmasına da adi hal kimi baxılacaq. Reytinqin yüksəlməsinə xidmət edən bu qeyri-adi və əxlaqsız münasibətlər, təəssüf doğurur. Həyatın ssenarisi ilə, filmin ssenarisini dəyişik salanların vay halına!

Nəzarətin olmamasından həvəslənən istehsalçılar, bilə-bilə ən absurd ssenarilərlə ölkəmizə, xalqımıza, dəyərlərimizə böyük ziyan vururlar. Ailə anlayışının müqəddəsliyi ölkəmizi yaşadan ən böyük sütundur, bunu unudan bizdən deyil!

Beləliklə, cəmiyyət dəyişdikcə, insanların psixoloji tələbləri artdıqca, hər bir sahədə olduğu kimi, bu sahədə də, hər kəsin qəbul edə biləcəyi məhsullar olmalıdı. Bəlkə bu gün maraqla izlədiyimiz bir film 100 ildən sonra heç bir iz qoymadan yaddaşlardan silinəcək. Yaxud əksinə, həmin filmlər gələcək nəsillər üçün kimliyimiz haqqında əvəzsiz informasiya daşıyıcısı olacaq. Kim bilir...? Məhz bu nöqteyi-nəzərdən istərdik ki, bu gün gələcək nəsilə informasiya verə biləcək filmlər çəkilsin, televiziya verilişləri hazırlansın. Tarixi mövzulara yer verilsin.

**Bir neçə gündən sonra kino tariximizin növbəti ildönümüdü. Bütün iradlarımıza rəğmən, inanıram ki, Azərbaycan televiziyası, kinosu yenə də özünə dönəcək, irəliləyişlər olacaq. İstər yaşlı, istərsə də gənc olaraq daha keçmişdə gördüklərimizin təəssübünü çəkməyəcəyik. Müasir, etik normaları özündə əks etdirən Azərbaycan qadını və Azərbaycan kişisi obrazını mütləq milli kinomuza qaytaracağıq.**



*Şahnaz Salehqızı*

# Son ümid yeri kimi Sizdən kömək istəyirəm

## (Sahibkardan Prezidentə müraciət)



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə,*
*Azərbaycan Respublikasının Birinci Vitse Prezidenti, Azərbaycan Respublikasının Birinci Xanımı,*
*xanım Mehriban Əliyeva*
*Surəti: zərbaycan Respublikasının Baş Naziri cənab Əli Əsədova;*
*Surəti: Azərbaycan Respublikası Milli Məclisinin Sədri xanım Sahibə Əli qızı Qafarovaya;*
*Surəti: Prezident Administrasiyasnın İqtisadi Məsələlər və İnnovativ İnkişaf Siyasəti üzrə köməkçisi cənab Şahmar Mövsümova;*
*Surəti: Azərbaycan Respublikasının Baş prokuroru*
*Cənab Kamran Əliyevə;*
*Surəti: Baş prokurorunun müavini Elmar Camalova;*
*Surəti: İtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevə;*
*Surəti: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri cənab Şahin Bağırova;*
*Sürəti: Ədliyyə Naziri Məhkəmə Ekspertiza İdarəsinin Rəisi Cənab*
*Rəhim Rəhimova;*

*Hörmətli Cənab Prezident!*

Bildirmək istəyirəm ki, bu bizim say hesabı ilə 19-cu müraciətimizdir. Bizə qarşı şəxsi prinsiplər davam edir. Bakı Baş Gömrük İdarəsinin yeni, demək olar ki, zor gücüylə təyin olunmuş rəisi Elmir Ramazanov və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırovun yaratdıqları süründürməçilikləri, bürokrat əngəlləri, qanunsuz hesablamaları, şişirdilmiş saxta ekspert rəyləri və kimlərinsə sifarişi ilə qanunvericiliyə riayət etmədən mallarımızın 4 ay orada qanunsuz saxlanılmasına və digər məmur özbaşnalığına hələ də son qoyulmayıb.

Bu günə kimi 01231000091678 saylı bəyannamə üzrə rəsmiləşdirmə qanunsuz olaraq dayandırılıb və prosesual pozuntularla Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq İdarəsinə göndərilib. Həm mallarımız anbarda açıq-aşkar məhv olur, həm də özümüzü digər tərəfdən məhv edirlər. Malların üstünə penya yazılır, sahibkarlıq fəaliyyətimə ciddi zərərlər dəyir. Sonuncu 9/3964 saylı 19.06.2023-cü il tarixli Məhkəmə Ekspertizasının rəyi mənə təqdim olunmur, göstərillmir, hətta oxumağa belə, imkan verilməyib. Lakin Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq İdarəsinin Müstəntiqi Toğrul müəllim bu mühüm, vacib olan işi kənara qoyub məzuniyyətə gedib. Mən bir daha bildirirəm ki, 01231000091678 saylı bəyanname İstintaq və Təhqiqat İdarəsinə qanunsuz göndərilib. Burada bir məqsəd var məni süründürməçiliyə məruz qoyaraq, şəxsi prinsiplərini axıra kimi aparmaq və mallarımızı hələ bundan sonra da qanunsuz olaraq yenidən 7-8 ay orada saxlamaq və məmur özbaşınalıqlarını həyata keçirə bildiklərini başka sahibkarlara da göstərmək.

Cənab Prezident!

Mən ancaq şifahi olaraq eşidirəm ki, Məhkəmə Ekspertizasının rəyində bizim malların topdan satış qiyməti 161324 manat, pərakəndə bazar qiyməti isə 397294 manat təyin olunub. 397294 manatı Ekspert Ehtiram müəllim haradan, hansı bazardan götürdüyünü mən hələ də anlaya bilmirəm. Sual verdikdə isə izah edə bilmir. Lakin rəsmi Dövlət elektron bazasında, İqtisadiyyat Nazirliyinin elektron bazasında və Dövlət Vergi xidmətinin elekton bazasında olan rəsmi sənədlər üzərindən nəzərə alaraq ki, eyni adlı, eyni kodlu və eyni cinsli mallar rəsmi qaimə-fakturalarla satılması barədə təqdim etdiyimiz sənədlər üzərindən və topdan satış qiyməti 161324 manat göstərilib. Gömrük məcəlləsinin 1.0.12 maddəsinə əsasən gömrük dəyərinin mallar üzrə müəyyən edilməsi "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanununa müvafiq olaraq müəyyən edilir. Gömrük tarifi haqqında qanunun 7.1. Malın gömrük dəyərinin müəyyən edilməsi (gömrük dəyərləndirilməsi) sistemi beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərə (1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) VII maddəsinə, GATT-ın VII maddəsinin Tətbiq edilməsinə dair Razılaşmaya və onun əlavələrinə) əsaslanır və gömrük ərazisinə gətirilən mallara şamil edilir.

Eyni zamanda malların gömrük dəyərləndirilməsi yəni, gömrük dəyərinin müəyyən edilməsi üsulları, "Gömrük tarifi haqqında" qanunun 12-ci maddəsində göstərilən 6 üsulla müəyyən edilir.

*1. Malların sövdələşmə qiyməti ilə;*
*2. Eyni malların sövdələşmə qiyməti ilə;*
*3. Eynicinsli malların sövdələşmə qiyməti ilə;*
*4. Dəyərin çıxılması üsulu ilə;*
*5. Dəyərin toplanması üsulu ilə;*
*6. Ehtiyat üsulu ilə.*

Dövlət Gömrük Komitəsi və Bakı Baş Gömrük İdarəsi deyəsən, "Gömrük tarifi haqqında" qanunu "Gömrük məcəlləsini" digər qanunvericilikləri nə saymır, nə tətbiq eləmir və yaxud mən düşünürəm ki, onların bu qanundan heç xəbərləri də yoxdur.

Belə ki, malların sövdələşmə qiymətinin üsulu qarşı tərəfdən mal aldığımız zaman rəsmi köçürtdüyümüz pulların invoysları və müqavilələrini rəhbər tutaraq hesablanan üsuldu. Bakı Baş Gömrük İdarəsinə bu üsul sərf eləmədikdə biz keçirik növbəti üsula, eyni malların sövdələşmə qiymətinə. Yəni digər şirkətlərlə və ya fiziki şəxslərlə Azərbaycan ərazisinə eyni kommersiya səviyyəsində, eyni miqdarda və ya təqribən eyni çəkidə, eyni vaxtda Azərbaycan Respublikasına ixrac məqsədilə satılan eyni malların sövdələşmə qiymətindən istifadə olunur. Nəzərə alaq ki, Gömrük Komitəsi bu mal üzrə statistik dəyəri 2.5 dollar ekvivalenti təyin edib. Lakin bu da Gömrük Komitəsinə və Bakı Baş Gömtük İdarəsinə sərf etmir və biz də keçirik növbəti üsula. Eyni cinsli malların sövdələşmə qiyməti bu üsulla Azərbaaycan bazarında satılan topdan satış qiymətləri qəbul edilir. Lakin Bakı Baş Gömrük İdarəsinə bu da sərf eləmir.

Dəyərin çıxılması üsulu ilə; Burada da Ekspertizanın saxta qoyduğu 397294 rəqəmindən çıxılma üsulu saxtakarlıqla 87000-88000 manat göstərilir. Keçirik növbəti üsula dəyərin toplanması üsulu: Bu gün 24.07.2023 tarixində Londonskiy Birjada nej metalın qiyməti 376.50 ABŞ dollardır. Onun üstünə Çindəki hansısa bir istehsal fabriki rentabilnə görə 376.50 + rentabilni gəlsək edir 564.75 dollar. Onun üstünə də gəlsək zavodun xeyri, hətta nəzərə alaraqki böyük bir xeyir qoysaq 80% xeyir 1016 dollar 55 sent təşkil edir və bundan sonra mən zavoddan alan zaman hansısa bir şirkət və ya makler vasitəsilə alsam, o da üstünə 20% qiymət təyin etsə, alınır 1219.86 dollar. Bu məbləğin də üstünə Azərbaycana kimi daşınma pulunu nəzərə alsaq 7%, əmələ gələn 4305.25 dollardır. Lakin bu üsulda da Dövlət Gömrk Komitəsinə və Bakı Baş Gömrük İdarəsinə sərf etməyən məqam olduğuna görə biz keçirik növbəti üsula. Ehtiyat üsulu, idxal olunan malların gömrük dəyərini bu Qanunun 13–17-ci maddələrinə əsasən müəyyənləşdirmək mümkün olmadıqda, gömrük dəyəri bu Qanunun 7.1-ci maddəsinə uyğun olaraq, beynəlxalq təcrübədə qəbul edilmiş ümumi prinsiplərə, habelə bu Qanunun gömrük dəyərləndirilməsinə dair müddəalarına uyğun vasitələrdən istifadə etməklə və gömrük ərazisində mövcud olan məlumatlar əsasında müəyyən edilir.

Eyni zamanda bildirmək istəyirəm ki, bu məcəllənin 18.2 maddəsində göstərilib ki, bu Qanunun 18.1-ci maddəsinə müvafiq olaraq malların gömrük dəyəri aşağıdakılar əsasında müəyyən edilə bilməz: Yəni 18.2.2 maddəsində göstərilib ki, "müqayisə üçün seçilən iki alternativ dəyərdən gömrük məqsədləri üçün ən yüksək olanının qəbul edilməsini nəzərdə tutan sistem" qəbul edilməzdir. Onda nəyə görə Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq İdarəsinə və Gömrük Komitəsi 9/3964 saylı 19.06.2023-cü il tarixli Məhkəmə Ekspertizasının rəyindəki malların 161324 manat təşkil edən topdansatış qiymətini götürmür lakin biz satdığımızda 2.46% dərəcəsi ilə yüksək və Məhkəmə ekspertizası tərəfindən təqdim olunan saxta yollarla hesablanan 397294 manat məbləğindən hesablama götürülür və hətta onun hesablamasını belə qanunsuz, şəxsi prinsiplərlə həmçinin Bakı Baş Gömrük İdarəsinin indiki zor gücüylə təyin olunan rəisi Elmir Ramazanov, onun əlaltıları və dəstəsi Aqil, Nurlanın sifarişləri ilə təyin edirlər.

**Hörmətli Cənab Prezident!**

Bundan öncəki müraciətlərimə əlavə etdiyim digər şirkətlərin və fiziki şəxslərin bizimlə eyni vaxtda gətirdiyi eyni 848180 kodu altında "santexnik mallarını" hətta bu günkü bu mübahisəli günümüzə kimi Dövlət Gömrük Komitəsinin vahid sistemi üzərində 2.5 dollar ekvivalenti ilə buraxılışa verirlər o sənədləri, sübutları Sizə təqdim edirəm. Lakin bizim məsələmizdə mənimlə şəxsi prinsiplərinə görə məsələ belə qəlizləşir. Bu şəxsi prinsip və sahibkar üzərində aparılan süründürməçiliyin, bürokrat əməlin arxasında Bakı Baş Gömrük İdarəsinin yeni, təzyiq və zor gücünə təyin olunmuş rəisi Elmir Ramazanov və Gömrük Komitəsinin rəisi Şahin Bağırovdur.

Buradan mən Hörmətli Baş Prokurorumuz Cənab Kamran Əliyevə müraciət edərək, acizanə şəkildə xahiş edirəm. Bakı Baş Gömrük İdarəsində baş verən qanunsuzluğa son qoyulması, Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq İdarəsinə qanunsuz araşdırma üçün göndərilən, prosesual müddəti keçən, eyni zamanda bizim malımız orada məhv olduğu və materialın müddətinin bitdiyi halda, sahibkara zərər gəldiyi halda müstəntiq Toğrul İbrahimlinin biganə yanaşıb məzuniyyətə getməsi halının araşdırılmasını və Məhkəmə ekspertizasının saxta təqdim etdiyi rəyin yoxlanılması üçün məni qəbul edərək bu məsələnin, ümumiyyətlə bu materialı öz nəzarətinə götürərək Prukurorluq orqanlarında araşdırılmasını xahiş edirəm.

**Hörmətli Cənab Prezident!**

Yuxarıda göstərilənləri nəzərə alaraq bir sahibkar kimi fəaliyyətimdə yaranan problemlərə və Bakı Baş Gömrük İdarəsinin yeni təyin olunmuş rəisi Elmir Ramazanov, Nazim Məmmədli, Aqil və Nurlan adlı əməkdaşlarının qeyri qanuni əməlləri, süründürməçilikləri, süni bəhanələrlə bürokratik əməllərin yaradılması, ölkə qanunvericiliyinin tələblərinə biganə yanaşmaları, öz vəzifələrindən sui - istifadə etmələri, açıq şəkildə vəzifə səlahiyyətlərini aşmaları, vətəndaşlara, əsasən də sahibkarlara ögey münasibətin bəslənməsi və nəticə etibarı ilə ölkə iqtisadiyyatının inkişafına əngəl törədilməsi eyni zamanda cənab Prezident Sizin apardığınız iqtisadi siyasətinizə qara kölgə salmalarının qarşısının alınması və gömrük orqanlarında qanunvericiliyin bərpa edilməsi məqsədi ilə müvafiq tədbirlərin görülməsi üçün lazımı tapşırıqların verilməsini Sizdən xahiş edirəm.

*Hörmətlə,*
*"GÜVƏN-2012" MMC-nin*
*Direktoru: Ramil Aslanov*
*Mob: 0552107910*

# Biz Sizə minnətdarıq!

## İbtidai siniflərdə oxumağın çətinlikləri — Xatirələr

**Əziz oxucular, qəzetimizin ötən sayından başlayaraq, keçmiş xatirələrimi sizinlə bölüşməyə davam edirəm. Bu dəfəki xatirələrim ibtidai sinifdə oxuduğum illərlə bağlıdır.?**

1960-cı il, sentyabr ayı - kəndimizdə, Orta Əlinəzərlidə məktəb olmadığına görə, kəndin 2-3 km məsafədə olan Birinci Aşıqlı kənd səkkizillik məktəbinin birinci sinifinə getdik. Sinif yoldaşlarım - Rəhimov Xəlil Şəmil oğlu, Quliyev Surxay Xanalı oğlu, Quliyev Maşallah Əyyub oğlu, Quliyev Fazil Həsrət oğlu, Məmmədov Sərhəd Qurban oğlu, Abbasov Ramiz Şahmar oğlu və digərləri ilə bərabər, rəhmətlik Valya müəllimənin dərs dediyi birinci sinifdə oxumağa başladıq. O vaxtlar Birinci Aşıqlı kənd səkkizillik məktəbinin direktoru İkinci Dünya Müharibəsinin veteranı, rəhmətlik Salam Məmmədov idi. Şagirdlər Salam müəllimdən həddindən çox çəkinirdilər. O, hər səhər məktəbin girişində dayanar, dərsə gecikən şagirdləri tənbeh edərdi. Bir dəfə mən də dərsə gecikmişdim. Salam müəllim məni saxlayıb, ***"dərsə niyə gecikmisən"***, deyə soruşdu. Cavab verə bilmədiyimə görə, qəflətən sifətimə bir şillə çəkdi. Şillənin təsirindən dəhliz açılan sinifimizin qapısına dəyib dayandım. Sinif rəhbərimiz Valya müəllimə üst-başımı təmizləyib, məni partada əyləşdirdi.

Salam müəllimin 62 il əvvəl vurduğu həmin şillənin ağrısını hələ də xatirimdən çıxmır. Qolu o qədər güclü idi ki, məktəbimizin xadiməsi Ballı arvadın iri bir danası məktəbin həyətinə girdiyinə görə, həmin danani əlindəki ağacla vurub öldürmüşdü. Bu hadisə bütün şagirdləri qorxuya salmışdı...

Xülasə, birinci sinifi bitirdikdən sonra, 1961-ci ilin sentyabrında Orta Əlinəzərli kəndində ibtidai məktəb (I-IV) açılığına görə, növbəti il doğma kəndimizdə oxumağa başladıq. Məktəb yeni olduğu üçün cəmi bir sinif otağı hazır idi. Hər iki sinifdə oxuyan uşaqların da sayı az olduğuna görə, 2 sinif (I və II sinif) bir otaqda dərs keçirdik, dərs ilinin başlanmasına baxmayaraq, məktəb binası hələ də yarımçıq idi. Tikilməkdə olan ibtidai məktəb binasının pəncərələri belə, düzəlməmişdi. Bir otaqda 2 sinifə - (I və II sinifə) bir müəllim, rəhmətlik gənc Mədətov Rafiq Nemət oğlu dərs keçirdi. O, 1963-cü ildə avtomobil qəzasında həlak oldu və məktəbə yeni müəllim, Beyləqanda (Jdanov) birillik müəllimlik kursu keçmiş rəhmətlik Zakir Uğuz oğlu Məmmədov gəldi...

Təsəvvür edirsiz, cəmi 3 otaqdan ibarət olan o məktəb nə qədər köhnəlib, hazırda istifadəyə yararsız hala düşsə də, uçmayıb, hələ də yerindədir. Yeni orta məktəb binası isə cəmi 30 ildir tikilib istifadəyə verilib. Artıq orta məktəbin şifer örtüyü tam dağılsa da, analoqsuz inkişafa malik olduğu iddia edilən hökumət bu məktəbi təmir etmir.

1961-ci ildə bünövrəsi qoyulmuş məktəbin köhnə binasından və torpaq sahəsindən səmərəli istifadə olunmur, sanki sahibsizdir...

İllər ötdü, orta məktəbi bitirib, 1971-ci ildə ali məktəbə qəbul oldum və 1975-ci ilin sentyabr ayında ibtidai təhsil aldığım həmin Orta Əlinəzərli kənd 8-illik məktəbinə müəllim kimi, ilk dəfə dərs deməyə başladım. 1976-cı ilin dekabr ayında Orta Əlinəzərli kənd 8-illik məktəbindən ayrıldım. İndi doğma kəndimizə gedəndə, həmin o köhnəlmiş, baxımsız binaya baxıb xəyalən keçmişə, bu məktəbdə keçən gənclik illərimə qayıdıram...

Orta Əlinəzərli İbtidai məktəbində çalışan, bizə dərs deyən rəhmətlik Rafiq Nemət oğlu Mədətovu, Zakir Uğuz oğlu Məmmədovu, Ağamirzə Əliş oğlu Quliyevi, Camal Bahadur oğlu Əliyevi, Əhməd Şıxəliyevi, hazırda təqaüddə olan Əjdər Qurban oğlu Məmmədovu, Mayor Fərrux oğlu Cəfərovu müəllim kimi üzərimizdə necə çalışdıqlarını, müəllim peşəsini bizə necə sevdirdiklərini hörmətlə xatırlayıram.

Onların hər birinin, xüsusən Ağamirzə müəllimin öz peşəsini necə ürəkdən sevdiyini, şagirdlərin mükəmməl bilik və bacarığa sahibi olması üçün necə can yandırdığını heç vaxt unutmuram.?

1963-1964-cü ildə Orta Əlinəzərli ibtidai məktəbinin 3-cü sinifində oxuyanda məktəbə yeni sinif müəllimi təyin olunan Ağamirzə Quliyevlə bağlı xatirələrimi də oxucularla bölüşməyi vacib sayıram.

İbtidai məktəbin 1-ci və ? 2-ci sinif müəllimlərinin təcrübəsizliyindənmi, yoxsa uşaqların laqeyidliyindənmi deyim, tez-tez dərsdən yayınar, dərslərimizi hazırlamazdıq. Ağamirzə müəllim məktəbə gələndən sonra, yenə əvvəlki kimi, dərsə getməz, bəzən də dərsdən qaçardıq. İkinci sinifdə oxuyanda, hətta dərs ili başa çatmamış, yəni may ayının əvvəlində dərsi buraxıb, ferma köçü ilə dağa getdim. Buna görə də, 3-cü sinifdə oxuyanda ilin birinci yarısında qiymətlərim çox aşağı idi. Payız gələndə isə, bildim ki, rəhmətlik Zakir müəllim məni 3-cü sinifdə saxlayıb. Həmin illərdə rəhmətlik atam Əlikişi yaşayırdı. Tez-tez məktəbə gələr, necə oxumağımla maraqlanardı. Məhz yaxşı oxumadığıma görə, atamın məktəbə gəlişini heç istəməzdim. Bilirdim ki, dərsi pis oxuduğuma, qiymətlərim onu qane etmədiyinə görə, atam mənimlə sərt davranırdı.



1963-1964-cü dərs ilinin noyabr ayında fermadan qayıdıb, təkrar üçüncü sinifdə oxumağa məcbur oldum. Ağamirzə müəllimin tələbkarlığı hesabına həmin dərs ilini yüksək qiymətlərlə başa vurub, dördüncü sinifə keçdim.

Dördüncü sinifin ilk günlərində Ağamirzə müəllim əvvəlkindən də sərt və tələbkar idi. Dərsi soruşar, bilənləri tərifləyər, yüksək qiymət yazar, bilməyənləri dərsdən sonra məktəbdə saxlayar, dərsi öyrənib, cavab verdikdən sonra şagirdləri evə buraxardı. Hətta bəzi valideynlər uşağının arxasınca məktəbə gələr, şagirdi saxladığına görə, müəllimə etiraz edərdi.

Beləcə, sərt müəllim tələbi ilə üzləşdiyimizə görə, yavaş-yavaş dərsdən yayınmağa başladıq. Lakin Ağamirzə müəllim dərsdən sonra məktəbə gəlməyən şagirdlərin arxasınca evlərə gedər, valideynlərlə söhbət edər, sonunda məktəbdən yayınan uşaqların dərsə davam etməsinə nail olardı.

Şagirdlərin dərsə davam etməsilə bağlı Ağamirzə müəllim valideynləri daim xəbərdar edərdi. Dərs ilinin ikinci rübün sonunda məktəbdə valideyn iclası keçirərdi, orada hər bir şagirdin qiyməti və davranışı haqqında valideynlərə ətraflı məlumat verər, çatışmazlıqları bildirərdi.

1964-1965-ci dərs ilinin sentyabrında dərslər yenidən başlayanda xəstələndim və dərsə davam edə bilmədim. Ağamirzə müəllim dərhal arxamca evə gəldi. Evimiz məktəbə yaxın olduğuna görə, bəzən dərsə gecikəndə də gələrdi. Xəstələndiyimi öyrənib, bildikdən sonra, sabah mütləq dərsə getməyimi anama dönə-dönə tapşırardı.

O gündən sonra məktəbə fasiləsiz davam etdim. Qısa müddətdə sinif əlaçısı olaraq, 1964-1965-ci dərs ilində Orta Əlinəzərli ibtidai məktəbinin dördüncü sinfini əla qiymətlərlə başa vurdum.

### Müəllim əməyini itirmirik

1964-1965-ci dərs ilinin əvvəlində hazırda təqaüddə olan, o vaxt gənc və enerjili, ali təhsilli, ixtisasca fizika-riyaziyyat müəllimi Əliağa Mehdiyevin direktorluğu ilə, iki kəndin - Orta Əlinəzərli və Yuxarı Əlinəzərli kəndlərinin ortasında Əlinəzərli kənd 8-illik məktəbi açıldı. Orta kəndin 5-ci və Yuxarı kəndin 1-cı sinif şagirdləri bu məktəbdə təhsilini davam etdirməyə başladılar.

Yeni məktəbdə tələbkar müəllimlərin yaratdığı qaynar mühitə düşmüşdük. Orta Əlinəzərli və Yuxarı Əlinəzərli kəndin ibtidai sinifini bitirən şagirdlər 5-ci sinifə, 5-ci sinfi I Aşıqlı 8-ollik məktəbində bitirən şagirdlər isə, 6-cı sinifdə oxuyurdu. Hər iki kənddə dərs deyən gənc və perspektivli müəllimlər Əliağa müəllim tərəfindən Əlinəzərli kənd 8-illik məktəbinə cəm olunmuşdular. Əliağa Mediyev, Hidayət Ağalarov, Hidayət Cəfərov, Bela Ağalarova, Həsrət Abdullayev, rəhmətliklər Ağamirzə Quliyev, Qubad Rəhimov, Camal Əliyev, Novruz Mirzəyev, Əsgər Xankişiyev, İsmayıl İsmayılov və digərləri eyni vaxtda olmasa da, məktəbdə oxuyan zaman əksəriyyəti kənddən olduğuna görə, orta məktəbi qurtarana kimi, az bir qismi isə, müxtəlif illərdə kənardan gəlib, Əlinəzərli kənd orta məktəbində bizə dərs deyən müəllimlər idi.

Yuxarı Əlinəzərli kəndindəki ibtidai sinif ləğv olunsa da, Orta Əlinəzərli kəndi ilə Əlinəzərli 8-illik məktəb arasında məsafə xeyli uzaq olduğuna görə, Orta Əlinəzərli kənd ibtidai məktəbi fəaliyyətini davam etdirdi. Əlinəzərli 8-illik məktəbinə Orta Əınəzərli kəndindən yalnız 5-ci sinifdə və yuxarı siniflərdə oxuyan şagirdlər təhsil alırdılar.

Hər iki kənddən Əlinəzərli 8-illik məktəbinin 5-ci sinifinə gələn şagirdlər arasında müxtəlif yaş qrupuna aid olan qızlar var idi. Qızlar kənddə ibtidaidən başqa məktəb olmadığına görə, ibtidai sinifləri bitirib, oğlanlar kimi, Birinci Aşıqlı kənd səkkiilik məktəbinə getmirdilər. Qızlar həm yaxşı oxuyurdular, həm də şagirdlərin əxlaq tərbiyəsinin normallaşmasına müsbət təsir edirdiər. Sinifdə əla və yaxşı qiymətlərlə oxuyan qızlar Sərayyə Abdullayeva, Ağabəyim Bayramova, rəhmətlik Rəna Balaşova, Validə Quliyeva, Əfruz Əliyeva hər üçü səkkizinci sinifdən sonra məktəbdən qayıtdılar, Elmira Abbasova, Rəfiqə Şirinova, Sərayyə Abdullayeva isə orta təhsillərini davam etdirdilər ...

*(Ardı var)*

*Tapdıq ABBAS*

# Tullantıları mənzil və ya həyatimizdə çeşidləyək

**İyul ayının 1-dən etibarən "Liberal İqtisadçılar Mərkəzi" İctimai Birliyinin Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Təbiətdə zibil yox, tullantı - xammal var" layihəsinin icrasına başlanılıb.**

"Liberal İqtisadçılar Mərkəzi" İctimai Birliyinin sədri Akif Nəsirli bildirib ki, könüllü əməkdaşların dəstəyi ilə eyni zamanda bir neçə məntəqədə monitorinqlar həyata keçirilir:

"Layihə cəmiyyət üçün çox böyük maraq kəsb edən sloqan altında həyata keçirilir. Belə ki, layihənin adı həm də onun hədəf şüarı seçilib - "Təbiətdə zibil yox, tullantı - xammal var".

Səbail rayonunun Badamdar qəsəbəsində apardığımız monitorinqlər nəticəsində müəyyən etdik ki, tullantıtoplanıs məntəqəsinə tullantı gətirən sakinlərin cəmi 18 faizi tullantını evində çeşidləyir.

Digər tərəfdən, monitorinq zamanı rəyi soruşulan sakinlarin böyük əksəriyyət - 93 faizi tullantı konteynerlərinin nə üçün müxtəlif rənglərdə olduğunun fərqində belə deyil. Konteynerlərin nə üçün narıncı və bənövşəyi rəngdə




olduğunu soruşduqda, əksəriyyət cavab tapmaqda çətinlik çəkir. Çoxları bunu gözəllik və rəngarənglik məqsədi ilə edildiyini dışünür.

Hörmətli Bakı şəhərinin sakinləri, hər hansı bir işə cəmiyyət kütləvi dəstək verərsə, bununla biz cəmiyyət olaraq onlarla zavod və fabrikin istehsal etdiyi məhsuldan dəfələrlə çox dəyər yarada bilərik. Çünki ən böyük zavodun uzağı bir neçə min işçisi və mexanizmləri ola bilər. Amma Bakı şəhərinin əhalisi milyonlarladır. Həmin milyonların ən azı hər gün dörddə biri tullantı-toplanış məntəqəsinə tullantı daşıyır. Bu isə o deməkdir ki, paytaxtımızda bərk məişət tullantılarının toplanmasında ən azı bir milyon şəhər sakini iştirak edir. Hərə günaşırı bir karton qutunu seçərək, qarısıq tullantıdan xilas etsə, biz hər gün yarım milyon karton qutuya qənaət - onlara yeni həyat bəxş etmiş olarıq. Digər tullantılar üzrə göstəricilər də təxminən eyni olacaq.

Bakı şəhər sakini olaraq, biz hər birimiz həyatımızda yaranan tullantıları çeşidləməklə ətrafda əl-ayağınıza dolaşan, lazımsız bildiyimiz karton, plastmas, şüşəyə və ya dəmir parçasına yeni həyat bəxş edə bilərik. Hər gün Bakı şəhərində minlərlə kondisioner, soyuducu, ütü, televizor, paltaryuyan və s. qablaşdırılmış məişət əşyası satılır. Həmin mal alıcının mənzilinə daxil olan kimi artıq qablaşdırma materialları alıcı üçün lazımsız əşyaya çevrilir.

Çünki bütün qablaşdırma materialları məhsulu alıcının mənzilinə sağ-salamat çatdırmaq üçün nəzərdə tutulur. Xırdalıqlara varsaq, biz əslində o "lazımsız" əşyaya çevrilmiş qablaşdırma mteriallarının da dəyərini ödəmişik, ona xərc çəkmişik. Bundan sonra biz həmin qablaşdırma materiallarını aparıb qarışıq tullantı konteynerini atırıqsa, xərcini çəkib aldığımız bu materialları doğrudan da heç nəyə yaramayan zibilə çevirirık. Həm də bir müsəlman cəmiyyəti olaraq israfa yol veririk - dəyərini ödədiyimiz bu materialları dəyərsizləşdiririk. Lakin biz qeyd etdiyimiz materialları təyinatı üzrə konteynerə yerləşdiririksə, bununla tullantıya yeni həyat veririk. Bu materiallar yenidən istehsal prosesinə qayıdır, xammal və ya yarımfabrikant kimi iqtisadiyyatımıza öz töhfəsini verməkdə davam edir.

Həm də bu addımla Allahın bizə verdiyi nemətlərə qənaət etməklə, savab iş görmüş oluruq. Çoxlarımız bu barədə heç düşünmürük də, amma diqqət etsəniz, düşünməyə və ağıllı sakin olmağa dəyər. Bu həm şəhərimizin gözəlləşməsinə, təmizliyinə və iqtisadi qüdrətimizin artmasına xidmət edən əməldir. Ona görə də hamınızı həyatınızda və mənzilinizdə yaranan tullantıları seçməyə, çeşidləməyə - tullantını xammala çevirməyə çağırırıq.

Hörmətli Bakı şəhərinin sakinləri, bir daha diqqətinizə çatdırmaq istərdik ki, tullantı-toplanış məntəqələrində qoyulmuş bənövşəyi konteynerlər qarışık tullantı, narıncı konteynerlər isə kağız-karton, plastmas, şüşə və dəmir tullantılar üçün nəzərdə tutulub".

***Dəniz Nəsirli***

*Yazı Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə, "Təbiətdə zibil yox, tullantı - xammal var" layihəsi çərçivəsində hazırlanıb.*

# Qarışıq tullantıları necə qablaşdırmalı?

"Liberal İqtisadçılar Mərkəzi" İctimai Birliyinin əməkdaşları tərəfindən Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarina Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Təbiətdə zibil yox, tullantı - xammal var" layihəsi çərçivəsində monitorinqlər zamanı qarşıya maraqlı məqamlar çıxır.

Məlumdur ki, yay mövsümündə bir tərəfdən kənd təsərrüfatı mənşəli qida məhsulları tez qoxuyan tullantıların həcmini bir neçə dəfə artırır, digər tərəfdən isə həmin məhsulların isti hava şəraitində sürətlə çürüməsi ətrafa xoşagəlməz, kəskin qoxu yayır. Üstəgəl, həmin tullantının şirəsinə yığılmış həşəratlar ətraf mühit və əhali üçün digər problemlərə yol açır.

Belə ki, bu cür antisanitariya milçək və digər həşəratların çoxalmasına, bununla da onların xəstəlik yayma potensialının artmasına münbit şərait yaradır. Bu prosesin qarşısını almaq üçün şəhər əhalisi ilk növbədə mənzillərdə yaranan bu tip qarışıq tullantıları qısa müddət ərzində tullantı-toplanış məntəqələrinə aparmalıdır.



Yəqin ki, çoxlarınız heç olmasa bir neçə dəfə yaşadığınız binaların liftində və ya girişlərində qonşularınızın üfunət qoxuyan tullantı apardığının şahidi olmusunuz. Hətta, bəzən belə tullantıların qoxusu bir neçə saat liftlərdən çəkilmir. Belə tullantılar tullantıtoplanış məntəqəsində hansı mənzərənin yaratdığını isə hamımız təsəvvür edirik.

Çünki biz hər gün tullantıtoplanış məntəqələrində belə halların şahidi oluruq. Bu problemi aradan qaldırmaq üçün bir məsələni yuxarıda qeyd etdik - qoxu verə bilən tullantıları uzun müddət evdə və ya həyətdə saxlamaq olmaz, belə tullantı dərhal tullantı-toplanış məntəqəsinə daşınmalıdır.

Lakin belə tullantıları mənzilinizdən və ya həyətinizdən çıxarmazdan əvvəl onu ağzı kip bağlana bilən polietilen torbalara yığın və torbanın ağzını elə bağlayın ki, oradan iy-qox çıxmadığına əmin olasınız. Yalnız bu əminlik hasil olduqdan sonra həmin qarışıq tullantını tullantı-toplanış məntəqəsinə apara bilərsiniz.

Biz layihə çərçivəsində müvafiq dövlət qurumları və tullantı daşıyan özəl şirkətlərə təkliflər verəcəyik ki, şəhər əhalisini hansısa formada belə polietilen torbalarla təmin etsinlər. Amma biz sakin olaraq da hələlik öz fərdi təşəbbüsümüzlə belə torbalar əldə edib, iyli-qoxlu tullantıları həmin torbalara, iyi ətrafa dağılmayacaq səviyyədə paketləyə bilərik. Polietilen torbalar elə qablaşdırma materialıdır ki, ağzı kip bağlandıqda onun içərisindəkinin ətirli piroq və ya üfunət qoxuyan tullantı olduğu bilinmir.

Ona görə də biz qarışıq tullantıları polietilen torbalarda kip paketləşdirməklə tullantı-toplanış məntəqələrini xoşagəlməz iy-qoxdan xilas edə bilərik.Bu işi Bakı şəhərinin bütün sakinləri asanlıqla həyata keçirə bilər. Ətrafda hara baxırsan, yalnız gözə polietilen torbalar dəyir, onlar həyatımızda boldur. Küləkli havada paytaxt səmasını "bəzəyən" bu torbalardan qeyd etdiyimiz məqsədlər üçün səmərəli istifadə etmək olar.

Beləliklə, biz qarışıq tullantıları kütləvi şəkildə yuxarıda qeyd etdiyimiz formada qablaşdırsaq, paytaxt Bakının tullantıtoplanış məntəqələrini üfunət iyindən və həşəratların toplaşdığı məskəndən səliqəli və iysiz bir məkana çevirə bilərik.

Gəlin, sağlamlığımız və paytaxtımızın gözəlləşdirilməsi naminə əl-ələ verək və bu işin də öhdəsindən gələk!

Bakılılar, gəlin, Bakı şəhərini tullantı qoxusundan xilas edək!

Yazı Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Təbiətdə zibil yox, tullantı - xammal var" layihəsi çərçivəsində hazırlanıb.

Yazida əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.

***Röyal Əsədli***

# Bakı şəhidləri:
# NATİQ MƏMMƏDBƏYLİ

Şəhidlər haqqında yazanda öncə vikepediyaya baxıram: Natiq Vahid oğlu Məmmədbəyli Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhididir.



Qəribə hiss dolur ürəyimə : Ağrılı, dərdli, qürurlu, sevincli, kədərli...

Vətən müharibəsi...Vətən müharibəsi şəhidləri... Gözlərim, beynim ilişib qalır bu ifadələrdə.

1972-ci ildə Samux rayonu Qarayeri qəsəbəsində anadan olub baş leytenant Səyavuş Saleh oğlu İmranov. 1989-1994-cü illərdə Azərbaycan Texniki universitetində həm də hərbi təhsil alıb. 1996-2000- ci illərdə Ağdam bölgəsində tağım komandiri olub. Sonra ehtiyata buraxılıb. 30 il neft sənayesində çalışıb. Fəxri neftçidir. 2-ci Qarabağ savaşının qazisidir. Baş leytenant Səyavuş İmranov danışır: *20 ildi ehtiyatdaydım.Tovuz hadisələri zamanı hərbi səfərbərliyə könüllü qoşuldum. İlk gündən müharibədə olmuşam. Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğruna döyüşlərdən keçdim. Müharibədi. Nə deyim ki? Dəhşətdi. 30 ilin ağrısı, acısı da var. Hamı qələbə üçün döyüşürdü. Ölüm haqda düşünmürdük. Necə igidlərimiz var. Natiq də bizim qəhrəmanımız idi. Toplanma məntəqəsində tanıdım onu. Döyüş bölgəsinə getməliydik. Sürücü lazım idi. "mən bacararam " deyib önə çıxdı. Heç fikirləşmədi. Sağsalamat bizi təyin olunmuş yerə çatdırdı. Əslində geri qayıtmalıydı. Qayıtmadı. "Döyüşəcəm" dedi. Nə qədər təkid etsəm də olmadı. Avtomobili təhvil verdi. Çox fədakarlıqlar edirdi. Yaralılara ilk tibbi yardım göstərir, onları təhlükəsiz mövqeyə çıxarır, təxliyyə edilməsinə çalışırdı. Həmişə öndəydi. Oktyabrın 19-da növbəti tapşırıq aldıq. Hadrut qəsəbəsinin Ərgünəş dağına qalxmalı idik. Ərgünəş çox önəmli strateji əhəmiyyətlidir. Düşmən mütəmadi əks hücumlar edirdi. 19-da gecə biz yüksəkliyə qalxdıq. Oktyabrın 20-də sübhdən ağır döyüş başladı. 22-də artıq Ərgünəş tam azad idi. Ordan Şuşa istiqamətində irəlilədik. Bu çətin döyüşdə düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etdik. Bizim də şəhidlərimiz, yaralılarımız oldu. Mən də yaralandım. Natiq Məmmədbəyli Ərgünəş dağı uğrunda gedən döyüşlərin ilk şəhidi idi. Başda Natiq olmaqla torpaqlarımızın azadlığı uğrunda şəhid olanların hamısı ilə fəxr edirəm. "Ruhunuz şad olsun, rahat olsun" deyirəm!*



Natiq Məmmədbəyli 1993-cü il iyulun 18-də Bakının Xəzər rayonunun Şağan qəsəbəsində anadan olub. 1999-cu ildə Şağan kəndində 124 №li tam orta məktəbdə doqquzillik təhsil alıb. Yaxşı oxuyan sakit, həlim, mehriban Natiq müəllim və şagirdlərin sevimlisiydi. Hələ ibtidai təhsil alarkən Gülsüm müəllimə valideynlərinə "O qədər məsuliyyətlidi ki. Dərs danışanda, tapşırığını yoxlayanda çox həyacan keçirir. Bir nöqtə səhvi belə onu narahat edir, utandırır". Beləcə böyüyür hər hərəkətini ölçüb-biçən, hər işə məsuliyyətlə yanaşan Natiq Məmmədbəyli. 2008-ci ildə 9 illik təhsildən sonra 101 №li peşə məktəbində tam orta təhsil almaqla bərabər, sürücülük peşəsinə yiyələnir.

2011-2013-cü ildə Goranboy rayonunda N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçir. Xidmətini layiqincə yerinə yetirir.

"Uşaqlıqdan sevimli oyuncaqları maşınlar olub. "Maşın ustası olacam" deyirdi həmişə. Təkcə sürücülük öyrənmədi, həm də yaxşı maşın ustası idi.-deyir anası Güldanə xanım.-Oğlum çox istiqanlı, çox mehriban, zəhmətsevər idi. İdmanı sevirdi. 3 il klassik güləşlə məşğul oldu, çox yarışlarda iştirak etmişdi, fərqlənmişdi. Sadəcə zədələr aldı, idmandan ayrılmalı oldu. Heyvanları da sevərdi. Qoyun saxlayırdı. Sübhdən qalxar heyvanlarına baxar, sonra işə gedirdi. Öz zəhməti, qazancı ilə özünə ev tikirdi. Seçib sevdiyi qızla nişanlıydı. Amma ərazi bütövlüyümüz də onu narahat edirdi. Müharibə xəbəri yayılan kimi "mən də gedəcəm" dedi. Mənə bildirmədi, amma hərbi komissarlığa gedib, təkid edirmiş. Bir gün gec çağırdılar deyə narahat oldu. 28 oktyabrda çağırdılar. Həmin gecə "ana, mənim yanımda yat"dedi. Balamdan qəribə, heç vaxt duymadığım ətir gəlirdi. Onu gətirəndə də bu ətri duydum. O gündən bu ətir yayılıb hər yerə elə bil. Cənnət ətri...Balam uca məqamdadı-bir də qürurla bunu söylədi ana.

Siz heç qürurlu şəhid anaları danışanda göz yaşının səsini eşitdinizmi? Mən eşitdim. Bu göz yaşında gah ağrıacıya, dərdə batdım, gah da gördüyüm bütün çirkablardan təmizləndim.

Vətən savaşı zamanı könüllülərin sayı-hesabı yox idi. Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad etmək arzusu vardı çoxları kimi Natiqin də. O bu arzu uğruna silaha sarıldı. Atası Vahid kişi tez-tez oğlunun necə tələsik getdiyini xatırlayır: Tovuz hadisələrindən, Polad Həşimovun ölümüündən sonra rahatlıq tapmırdı. O vaxt könüllü yazılmışdı. Hər gün İkinci Qarabağ savaşının başlanmasını gözləyirdi. Hərbi komissarlığa qaça-qaça getdi. İnsan övladını hamıdan üstün bilsə də, yaşadıqca yenidən tanıyır. Onun gedişi yadıma düşdükcə kövrəlirəm, qürurlanıram. Necə vətənsevdalıymış oğlum...



Xalqın qəhrəmanı oldu.Tariximizə şərəf gətirdi.Şagird gündəliklərinə yazılan qara günləri sildi.

Tural Məmmədbəyli: Natiqlə təkcə qardaş deyildik, dost idik. Çox sevinirdi döyüşə gedəcəyinə. Zəng edəndə elə rahat danışırdı ki, elə bil ölümlə üz-üzə deyil. "Necəsən" soruşanda, "Torpaqlarımızı alırıq, necə olaram-əla. O qara tarixləri silirəm, qardaş" deyirdi. Bizim gündəliklərdə işğal günləri yazılırdı qara hərflərlə. Məktəbli olsaq da, hər baxanda əsəb keçirirdik. O qara tarixləri silməyi çox arzulayırdıq. Qardaşım kimi oğullar o qara günləri sildi tariximizdən. Natiq şəhid olandan sonra oğlum dünyaya gəldi Qardaşımın adını daşıyır. Məhz Natiq kimi oğulların sayəsində böyüyən nəslin gündəliyində qələbə günləri yazılacaq. Bunu çox arzulayırdı. Ən ali arzusu torpaqlarımızın azadlığı idi. Ən ali arzusuna çatdı qardaşım.

Natiq "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

Seyfulla Ağayev onun həm də xalası oğludu: İkimiz də yazılmışdıq. Mənə bir gün əvvəl zəng gəlmişdi. Elə narahat idi. Bütün günü"məni niyə çağırmırlar"-dedi. Səhər sevinə-sevinə zəng vurdu ki, mən də gedirəm. Mən tankçı idim. Ona görə döyüşlərdə ayrı düşdük. Amma orda da onun igidlikləri haqqında eşidirdim. Onunla fəxr edirdim...

" Gözəl dost, cəsur döyüşçü idi Natiq. Sinəsini hər kəs üçün sipər edərdi. Müharibədə hər şeyi gözə alırsan. Orda olmaq bir başqadı. Döyüşmək ağır deyil əslində.Torpağını azad edirsən. Ən ağrılı döyüş yoldaşlarının şəhid olduğunu görməkdi. Çox çətin olur. O döyüşlərdə yaralandım. Natiqin şəhid olduğunu gördüm. Heç unutmaq olmur..."-bunları xatırladı qazi Elnur.

"Zəfər paradından iki gün əvvəl yuxuma gəldi. Maşınım orda olacaq. Elə bildim özü də ordadır. Onun varlığını hiss edirəm. Onun ətri gəlir hər yerdən-cənnət ətri..."-bir də bunu dedi Güldanə xanım.

Elədi, əziz Ana, gözəl Ana. İndi igidlərimizin, şəhidlərimizin ayağı dəyən hər yer cənnətdi. Bizim Azərbaycan cənnətdi. Onun hər qarışında şəhidlərimizin izi var. Ona görə bu yurdun havasından, suyundan, dağından, daşından cənnətin ətri gələcək həmişə.

***Kamalə Abiyeva***

# TARİXİ ƏDALƏT: ERMƏNİ FAŞİZMİNİN SONU

Erməni tarixçisi C.P.Ağayan 1918-ci ildə Qafqazda ermənilər və Azərbaycan türkləri arasında toqquşmanın baş verməsinə milliyətçi erməni qruplarının səbəb olmasını qeyd edib. Erməni müəllifi, İrəvanda Dro və polkovnik Pirumyanın başçılığı ilə daşnak ordusunun 1918-ci ilin fevralın 22-də azərbaycanlılara aid olan Uluxanlı kəndini mühasirəyə alaraq atəşə tutduğunu bildirib. Ağayan, ermənilərlə azərbaycanlıların arasında Sürməli, Kəmərli və Dəvəli istiqamətində toqquşmaların olduğunu bildirib. Bundan əlavə, Kuro Tarhanyan və polkovnik Ter-Sarkisyanın əmrində olan daşnak qruplarının bölgənin yerli əhalisi olan azərbaycanlılara qarşı həyasızcasına təcavüz etdiyini qeyd edib. Ağayan, Azərbaycan türklərinə qarşı törədilmiş soyqırımların və vəhşiliklərin tam təsvirini verməsə də, bəzi həqiqətləri öz dili ilə etiraf edib. Qeyd etmək lazımdır ki, Ağayanın əsərində tərəflər arasında baş verən hadisənin toqquşmalar şəklində göstərilməsinə baxmayaraq, əslində yerli kəndlilərə qarşı ağır silahlarla edilən hücumlara türk kəndlilərinin cavab verməsi üçün hər hansı silahlarının olmaması məlumdur. Ona görə ki, Çar Rusiyasının hərbi dairələri Azərbaycan türklərinin əllərində olan silahları yığaraq həmin insanları erməni faşistlərinin qarşısında müdafiəsiz vəziyyətə salmışdılar. Ermənistanda daşnakların hakimiyyəti dövründə türklərə qarşı qırğının törədilməsi ən səlahiyyətli şəxs tərəfindən də etiraf edilmişdir. Həmin zaman Ermənistanın sabiq Baş naziri olmuş Ovanes Kaçaznuni, “İnzibati üsullarla müsəlman bölgələrində düzən qura bilmədik, silaha sarılmaq, ordu göndərmək, yıxmaq və qırğını törətmək məcburiyyətində qaldıq” - deyərək ermənilər tərəfindən həyata keçirilmiş qətliamları etiraf edib . Sovet Ermənistanının dövlət xadimi olmuş A.Karinyan İğdıra bağlı Sürməli qəzasında müsəlmanlara məxsus kəndlərdə daşnaklar tərəfindən törədilmiş cinayətləri - insanı üsyan etdirməyə vadar edən hadisələr kimi xarakterizə edib. Karinyan, daşnaklar tərəfindən müsəlmanlara məxsus Carbah kəndinin də tamamilə təmizləndiyini qeyd edib . Bu baxımdan onu da qeyd etmək lazımdır ki, Sovet tarixçisi Pavloviç, daşnak hökuməti tərəfindən ölkə daxilində müsəlman əhalisinin sistematik şəkildə öldürülməsinin və ölkə xaricinə məcburən köç etməsinin təmin edilməsinə dair siyasətin həyata keçirildiyini qeyd edib.

Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün ədalət uğrunda Ermənistanla tarix boyu mübarizə aparıb. Tarixə nəzər saldıqda o məqamı qeyd etmək olar ki, 1992-ci ilin sentyabrın 2-də Azərbaycan Ordusu Ermənistana qarşı sürdürdüyü 83 günlük hücumu başa çatdıraraq o vaxt Qarabağın demək olar ki yarısını Ermənistanın işğalından azad etməyə nail olmuşdu. Ancaq öz havadarlarından dəstək almağa nail olan Ermənistan Qarabağı işğal atında saxlamağa davam etdi. Həmin vaxt Azərbaycan Ordusunun sarsıdıcı zərbələrindən vahiməyə düşən Köçəryan, vəziyyətin dəhşətli olmasını etiraf edərək Azərbaycan Ordusunun Qarabağın 48%-ni tutmasını qeyd edib. Başqa sözlə desək, Ermənistan ordusu sözügedən zamanda da ciddi itkilərə məruz qalmışdı. Belə ki, Ermənistanın 2 min nəfərlik canlı qüvvəsi, 50 ədəd zirehli texnikası və 16 artilleriya-minomyot sistemi darmadağın olunmuşdu.

Ermənistan 1993-cü ilin payızında Ermənistanın hərbi-siyasi rəhbərliyində ciddi fikir ayrılıqlarının olmasına görə Ermənistana məxsus güc strukturlarının nümayəndələrinin - Ermənistanın Prezidentinin Milli Təhlükəsizlik üzrə sabiq köməkçisi A.Manuçaryanın, Ermənistanın sabiq Müdafiə Naziri V.Manukyanın, Ermənistanın Baş Qərargah rəisi N. Ter-Qriqoryantsın və s. şəxslərin istefası müşahidə olunub . Həmin vaxt Ermənistanın hərbi postlarına erməni separatçı qruplaşmalarının radikal nümayəndələri təyin olundular. Əvvəllər işğal olunmuş Azərbaycan rayonlarından məcburi köçkünlərin xeyli cəmləşdiyi Beyləqan rayonunun mərkəzi istiqamətində hücum olunması qərara alındı ki, burada da məqsəd həmin ərazinin mərkəzini və ətraf ərazilərini tutmaq və beləliklə də Azərbaycanın daxili siyasi sabitliyini pozmaq idi.

1994-cü ilin payızında - 1995-ci ilin qış və yaz aylarında Ermənistanda hərbi xidmətə çağırışlar həyata keçirilmişdi. Həmin vaxt Ermənistan Rusiya tərəfindən T-80 tankları ilə; “Uraqan”, “Şturm-S” və “Tunquska-M” silahları ilə; MİQ-23 qırıcıları və Su-25 hücum təyyarəsi ilə təmin olunmuşdu. 1994-cü ilin mayın 20-dən etibarən Ermənistanın Silahlı Qüvvələri tərəfindən işğal olunmuş ərazilərdəki yaşayış məntəqələri və infrastruktur obyektləri sistemli şəkildə dağıdılmışdı.

Qeyd etmək lazımdır ki, Ermənistan ona arxa çıxana da xəyanət edən bir dövlətdir. Belə ki, 2019-cu ilin mayında Ermənistana bir neçə milyon dollar dəyərində hərbi texnikanın tədarükü üçün keçirilən tenderlə bağlı qalmaqal yaranıb. Rusiyanın silah şirkəti ORSIS-in kvalifikasiya tələblərinə cavab verməsinə baxmayaraq Ermənistan tərəfindən tender ləğv olunub və bu, cinayət araşdırmasına səbəb olub. Daha sonra isə ORSIS Ermənistanın silah tədarükçülərinin “qara” siyahısından çıxarılıb.

Ermənistan ordusunda xidmət edən əsgərlərə lazımi qayğı göstərilməyib, onlara keyfiyyətli yeməklər verilməyib. Sonradan isə əməllərini ört-basdır etməkdən ötrü 2019-cu ilin fevralın 21-də Ermənistan dövləti, hərbi qulluqçuların qidalanması sistemində dəyişiklik etmək qərarına gəlib və qida məsələsi özəl təşkilatlara həvalə olunub. Yeni sistemə əsasən erməni əsgərlərinə keyfiyyətli yeməklərin gündə üç dəfə verilməsi nəzərdə tutulub. Ermənistanın Müdafiə Naziri David Tonoyan həmin vaxt yeni qida təchizatı sisteminin tətbiqi prosesinin 2020-ci ilin sonuna qədər tam başa çatacağını bildirib. 2019-cu ilin noyabr ayına olan məlumata əsasən, sözügedən özəl şirkətlər Ermənistan Silahlı Qüvvələrinin təxminən 40%-ni keyfiyyətli qida ilə təmin ediblər.

Qeyd etmək lazımdır ki, son 5 ildə Ermənistanın bütün silahları Rusiyadan idxal olunub. Bu barədə 2020-ci ilin martın 9-da Stokholm Beynəlxalq sülh problemləri Araşdırmaları İnstitutunun (SİPRİ) məruzəsində qeyd olunub. 2019-cu ildə Ermənistanın müdafiə xərcləri təxminən 630 milyon dolları təşkil edib. SİPRİ-nin verdiyi məlumata əsasən, Ermənistan bununla da hərbi məqsədlərə ÜDM-in 4,9%-ni sərf edib.

2018-ci ildə rəngli inqilab nəticəsində hakimiyyətə gələn Nikol Paşinyan “Qarabağ Ermənistandır və nöqtə” kimi populist bəyanatlar səsləndirərək təxribat xarakterli fəaliyyətini nümayiş etdirmişdi. 2019-cu ilin mart ayında ABŞ-a rəsmi səfər edən Ermənistanın Müdafiə Naziri David Tonoyan isə növbəti bir təxribata yol verərək hər kəsi “yeni ərazilər uğrunda yeni müharibə”yə dəvət etmişdi.

Ermənistanın növbəti təxribatı 2020-ci ilin iyulun 12-də müşahidə edilmişdir. Həmin vaxt Azərbaycan - Ermənistan dövlət sərhədində Tovuz rayonunun istiqamətində ermənilər Azərbaycan Silahlı



Qüvvələrinin mövqelərinə hücum ediblər. Belə ki, Ermənistan Silahlı qüvvələrinin bölmələri Tovuz istiqamətində Azərbaycan-Ermənistan dövlət sərhədini ələ keçirmək məqsədilə atəşkəs rejimini kobudcasına pozaraq gərginliyin artırılması məqsədilə növbəti hərbi təxribat törədərək, mövqelərimizi iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından atəşə tutublar. Bir neçə gün ərzində baş verən döyüşlər zamanı düşmən təxribatının qarşısı alınıb və düşmənə sarsıdıcı zərbələr vurulub. Azərbaycan Ordusu düşmənin 100-dək canlı qüvvəsini, çoxlu sayda hərbi texnikasını və mühüm düşmən obyektini məhv edib.

Tovuz döyüşlərində Azərbaycan Ordusunun hərbi qulluqçuları - general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, sıravi Elçin Mustafazadə, çavuş Vuqar Sadıqov, sıravi Nazim İsmayılov, sıravi Elşad Məmmədov, sıravi Xəyyam Daşdəmirov qəhrəmancasına şəhid oldublar. Döyüşlər zamanı bir neçə əsgər isə yaralanıb. Ermənilərin Ağdam kəndində yerləşən evlərdən birinə atdığı mərminin nəticəsində kəndin 76 yaşlı dinc sakini Əziz Əliyev həlak olub. Göründüyü kimi güclü Azərbaycan Ordusu qarşısında tab gətirməyən ermənilər xaincəsinə kəndin dinc sakinlərini hədəfə alıblar.

Qeyd etmək lazımdır ki, 2020-ci ildə baş verən 44-günlük İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ermənistana qalib gəldi. Oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı, noyabrın 8-də isə Şuşa işğaldan azad olundu.

Şuşanın relyefini nəzərə aldığımız zaman qeyd etmək lazımdır ki, Şuşaya ağır silahların və tankların köməyi ilə daxil olmaq çətin məsələ idi. Şuşanı işğaldan azad etməyin tək yolu artilleriyanın atəşiylə və hava hücumları ilə zərbələr endirmək idi. Lakin onu da nəzərə almaq lazımdır ki, belə olduğu halda şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb ola bilərdi. Onun üçün çıxış yolu olaraq əlbəyaxa döyüş taktikasının tətbiq olunmasına üstünlük verildi. Azərbaycan Ordusunun yüngül silahlanmış qəhrəman əsgər və zabitləri sıx meşələri, dərin dərələri, qayaları, dağları keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdilər. Həmin zaman Xankəndində olan xarici jurnalistlərdən biri erməni silahlı qüvvələrinin düşdüyü ağır vəziyyəti bu şəkildə təsvir etmişdi:

“Şuşadakı erməni ordusu məğlub oldu. Onlarca yaralılar hərbi təcili yardım maşınları ilə qan içində Xankəndində yerləşən xəstəxanaya daşınırdı. Digər hərbçilər yorğun halda dağlardan aşağı enir və hərbi geyimlərini çıxararaq yola düşürdülər. Təcili yardım maşınları fasiləsiz olaraq işləyirdilər. Yaralı əsgərlər maşınların içində üstüstə qoyulurdu. Əsgərlərin aldıqları xəsarətlər onların arasında əlbəyaxa döyüşlərinin olmasına sübutdur ”.

Həmin vaxtı Fransanın “Le Monde” qəzeti tərəfindən dərc edilən bir xəbərə əsasən, erməni ordusunun məğlub olmuş əsgərlərinin müxtəlif dərəcəli xəsarətlərlə Şuşadan Xankəndinə qaçdıqları qeyd olunmuşdu . Şuşanın işğaldan azad olunması müharibədə əsaslı dönüşün baş verməsi ilə nəticələndi. Növbəti gün 70-dən çox kəndin azad olunmasına dair xəbər verildi. Aciz vəziyyətdə qalan Paşinyanın, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin şərtlərini qəbul etməsi və Ermənistanı rüsvay edən kapitulyasiya aktını imzalaması Azərbaycanın İkinci Qarabağ müharibəsində Ermənistan üzərində olan böyük tarixi qələbəsi idi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin noyabr ayının 8-də Şuşa şəhərinin işğaldan azad olunmasına dair verdiyi müjdə Azərbaycan xalqının böyük sevincinə səbəb oldu. Başqa sözlə desək, tarixi ədalət öz yerini tapdı. 2020-ci ilin noyabr ayının 10-da Azərbaycanın, Rusiyanın və Ermənistanın iştirakı ilə üçtərəfli bəyanat imzalandı. Həmin bəyanata əsasən, noyabr ayının 20-də Ağdam rayonu, dekabr ayının 25-də Kəlbəcər rayonu, dekabr ayının 1-də isə Laçın rayonu hər hansı bir insan itkisinə yol verilmədən işğaldan azad olundu. Bu Ermənistan üzərində Azərbaycanın həm də diplomatik qələbəsi idi

İstifadə edilmiş mənbələr:

*1. S.Sertçelik. Rus və erməni mənbələri işığında erməni problemi. 1915-1923 müstəmləkə müharibəsi. SRT Yayınları. Türkiye. 2017. 572 s.*

*2. A.Nağı. Qarabağ müharibəsi. Qısa tarix. Azərbaycan Milli Kitabxanası. Bakı, 2014. 123 s. // http://anl.az/el/Kitab/2015/Azf-281128.pdf*

*3. D.Araslı. «Armәno-Azerbaydjanskiy konflikt» (voennıy aspekt), izdatelğstvo Grqön, Baku, 1995, 88 str. // https://library.virtualkarabakh.az/uploaded_files/pdf/e9b92a0234dd-Armәno-azerbaydjanskiy%20konflikt.pdf*

*4. Armәnskoy Armii - 28 let: kakim bıl dlә nee 2019 qod /28.01.2020/ https://newsarmenia.am/news/armenia/armyanskoy-armii-28-let-kakim-byl-dlya-nee-2019-god-/*

*5. Strateqiә armәnskoy armii: Erevan obuzdaet «revanşistskie ambiüii» Baku /10.06.2020/ https://eadaily.com/ru/news/2020/06/10/strategiya-armyanskoy-armii-erevan-obuzdaet-revanshistskie-ambicii-baku*

*6. Vtoraә Karabaxskaә voyna /13.09.2022/ https://www.virtualkarabakh.az/ru/post-item/52/2871/vtoraya-karabahskaya-vojna.html*

*7. General-mayor Polad Həşimov və daha 11 hərbçinin şəhid olduğu Tovuz döyüşlərinin ikinci ildönümüdür /12.07.2022/ https://ordu.az/az/news/226348/tovuz-doyuslerinin-ikinci-ildonumudur*



Tədqiqatçı
**Kamal Salayevin**

# Həyatın 92 anı

Bu yazı dövlət xadimi, əməkdar mühəndis, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Kamil



Məkdəkanda makaron fabrikin tikintisinə SSSR-i Nazirlər Soveti Sədrinin Birinci müavini, KP MK-nın siyası bürosunun üzvü, Bakı şəhəri Əzizbəyov rayonu seçki dairəsi üzrə SSSR-i Ali Sovetinin deputatlığa namizədi H.Ə.Əliyevin gəlməsi. 1983-cü il.

Seyid oğlu Məmmədova ithaf olunur.

*Bu, həqiqətdir, belə deyirlər,*
*Bütün varlığı ilə, söyləyir hamı.*
*İşinin sahibi olub həmişə,*
*Onun ürəyinin sönməz ilhamı.*

*Xalqın adamıdır, deyirlər sənə,*
*Hər kəs layiq olmur bu ada şamil,*
*Sən xalqın içində böyüdün deyə,*
*Əsl xalq adamı oldun, sən Kamil.*

*Xoşbəxtlik nə varda, nə dövlətdədir,*
*Xoşbəxtlik yalnız elin sevgisindədir.*
*Elin dar günündə, çətin məqamda,*
*Əlin həmişə elinə, xalqa dayaqdır!*

*Sənin sadə görkəmin uca zirvədir,*
*Xalqının gözündə dağ vüqarlısan!*
*Əməlin xalqın ürəyində dərin iz açır,*
*Sən həmişə üzüağ yaşayacaqsan!*

Belə insanlara dağ vüqarlı, geniş ürəkli xalq ziyalısı deyilir. Zaman-zaman doğma xalqımızın cahana bəxş etdiyi, dahi şəxsiyyətləri arasında şərəfli yer tutan, dövlətimizin fəxri ziyalısı, həyatını yurdumuzun inkişafına və tərəqqisinə həsr edən, sözün əsl mənasında, ömrüboyu xalqın rifahı naminə çalışan, tanınmış dövlət qulluqçusu Kamil Seyid oğlu Məmmədov haqqında yazı yazmaq bizlərə qismət oldu.

Ölkəmizdə və dünyada tanınmış dəyərli şəxslər yetirmiş Qəbələ torpağında doğulan Kamil Seyid oğlu Məmmədov kasıb, sadə ailədə anadan olub.

1936-cı ildə Quba (Qutqaşen) rayon 1 saylı məktəbin birinci sinfinə da-



xil olub, 1951-ci ildə orta məktəbi qızıl medalla başa vurub. Kamil Məmmədov rayonun savadlı və peşəsini sevən pedaqoqu, Əməkdar müəllim Məhəmməd Qəribovun dərs dediyi sinifdə oxuyub. Hələ orta məktəbdə oxuyanda, elmə maraq göstərən Kamil Məmmədov orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün SSRİnin Leninqrad (Rusiyanın indiki Sankt-Peterburq) gedir. Həmin vaxt



Nazirlik aparatının kollektivi. 1981-ci il.

ailənin maddi vəziyyəti ağır idi. Lakin Kamil Məmmədovun fikri qəti idi. Nəhayət, 1951-ci ildə qapılar Kamil Məmmədovun üzünə açılır, o, Leninqrad Texnologiya institutunun mexanika fakültəsinə daxil olur. Rus dilini çox zəif bilən Kamil Məmmədov institutun rektoru tərəfindən Leninqrad şəhər Puşkin adına Ədəbiyyat İnstitutundan rus dili müəllimi tutur və gənc tələbə Kamil Məmmədova rus dilini öyrənir. Rus dili dərsi bir il davam edir. Artıq Kamil Məmmədov rus dilini çox yüksək səviyyədə mənimsəyir və çətinlik aradan qaldırılır. Kamil Məmmədovun yalnız bir problemi qalır, maddi çətinlik onu sıxır. Maddi çətinlik çəkən tələbə Kamil məcbur olub, hər həftənin iki günü gecələr yük vaqonlarını boşaltmaqla məşğul olur, hətta yay tətilində Leninqradda qalıb, kolxoz və sovxozlarda işləməklə pul qazanır. Maddi çətinlik üzündən oxuduğu beş il ərzində bir dəfə də olsun, öz doğma rayonuna gələ bilmir. Kamil Məmmədov yalnız üçüncü kursda oxuyanda özünə palto ala bilir.

Oxuduğu müddətdə Kamil Məmmədova böyük etimad göstərən institut rəhbərliyi onu Tələbə Elmi Cəmiyyətinin sədri vəzifəsinə seçir. Nəhayət, beş il vaxt gəlib keçir və Kamil Məmmədov institutu fərqlənmə diplomu ilə bitirir. İnstutda keçdiyi 34 fənin 33-dən əla qiymət alır, biri qiyməti isə yaxşı olur.

Ali təhsilini fərqlənmə diplomu ilə başa vuran Kamil müəllim 1956-cı ildə əmək fəaliyyətinə başlayır və 44 il xalqa, vətənə, dövlətə ləyaqətlə xidmət edir. Ona görə də, çətin, lakin şərəfli əməyi ilə K. Məmmədov adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb.



Qırmızı Əmək Bayrağı ordenin H.Ə.Əliyev tərəfindən təqdim edilməsi.
Bu zaman o soruşdu: Pambıq toxumlarının emalı necədir?
Mən cavab verdim: Heydər Əliyeviç onlar hamsı respublikada emal olunacaqdır.

Kamil Məmmədov həm də gözəl, qayğıkeş və ləyaqətli ailə başçısıdır. O, 63 illik ailə həyatında Simuzər xanımla birlikdə 3 övlad böyüdüb, böya-başa çatdırıb. Oğlu İlqar Məmmədov hüquqşünas, qızı Təranə xanım tibb elmləri namizədi,



Badamlı mineral sular zavodunda Heydər Əliyevi həmişə böyük sevinclə qarşılayırdılar...

Kəmalə xanım ingilis dili müəllimidir. Beş nəvə, səkkiz nəticə sahibi olan Kamil müəllim xalqımızın, o cümlədən Qəbələnin fəxridir.

18 avqust Kamil Seyid oğlu Məmmədovun ad günüdür.

Geniş qəlbli ziyalı, el ağsaqqalı, gözəl ata, baba, ulu baba, Sizi ad günü münasibətilə təbrik edirik, sizə möhkəm can sağlığı, uzun ömür və yüz yaşın zirvəsini fəth etməyi arzulayırıq.

Təbrik edirlər:

Dərin hörmətlə, həyat yoldaşı Simuzər xanım, oğlu, hüquqşünas İlqar Məmmədov, qızları-tibb elmləri namizədi Təranə xanım, pedaqoq Kəmalə xanım, nəvələri, nəticələri, o cümlədən iş adamı Mahmud Kərimov, jurnalist Nəzakət xanım, orta məktəb yoldaşı, pedaqoq Feruz Səddinov, dövlət qulluqçusu Səməd Səmədov, texnika elmləri doktoru, professor, Telman Nizamov, Azərbaycan və Beynəlxalq Mühəndislik Akademiyasının akademiki, dövlət mükafatı laureatı, əməkdar mühəndis Sədiyar Səfərəliyev, dövlət qulluqçusu Məhəmməd Mirzəmmədov, dövlət qulluqçusu Qərib Qəribov, Əməkdar müəllim Sadıq Sadıqov, "Paralel" qəzetinin bölgə müxbiri, Azərbaycan Respublikasının maarif xadimi, əməkdar müəllim, Qəbələ rayon Ağsaqqallar Şurasının idarə heyətinin üzvü Fərman Məhəmməd Əzizli bu təbrikə qoşulurlar!

***Təbriki hazırladı: "Paralel" qəzetinin bölgə müxbiri Fərman Məhəmməd Əzizli***

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

**44-cü YAZI**

***(əvvəli ötən saylarımızda)***

Allahın mübarək adlarından biri də əl-Haqdır, yəni O, mütləq gerçəkdir, həqiqətin tayı-bərabəri olmayan bənzərsiz qaynağıdır. Allahın əl-Haqq olmasını bu dörd ölçü ilə anlaya bilərik:

***- əl-Haqq olan Allah zatı baxımından mütləq həqiqətdir;***

***- O, bir başqa varlığa möhtac olmayandır;***

***- əl-Haqq olan Allah mənasız, məqsədsiz işi olmayandır (hər işi, hər yaratdığı mənalı, məqsədlidir);***

***- əl-Haqq olan Allahın hər sözü mütləq doğrudur;***

b) Batil anlayışı

***"Batil"*** sözü ərəbcədir, ***"b-t-l"*** kökündəndir, Qurani-Kərimdə eyni kökdən törəyən sözlərdən otuz altı kərə istifadə olunmuşdur, bu anlamları var: ***"silmək", "ləğv etmək", "boş", "anlamsız".***

Batil haqqın ziddidir, ***"hər hansı sabit bir şey deməkdir",*** varlığı olmayandır, boş, təməlsiz, əslsizdir. Allah tövhid inancından başqa inancların batil olduğunu buyurur (Loğman, 31/30).

Batilin özəlliklərindən biri də yox olmaq məcburiyyətidir. Allah batilin yox olma şərtini açıqlamışdır: ***"De ki, haqq gəldi, batil yox oldu. Doğrusu, batil yox olmağa məhkumdur"*** (İsra, 17/81).

Allah hüquqi olmayan şeylərə, haqsızlığa və zülmə də batil deyir: ***"Ey iman edənlər! Mallarınızı aranızda haqsızlıqla deyil, qarşılıqlı riza ilə olan ticarətlə yeyin, haram ilə nəfsinizi məhv etməyin. Allah, şübhəsiz ki, sizə mərhəmət edər"*** (Nisa, 4/29).

Qurani-Kərimə görə oğurluq, qəsb, qumar, rüşvətlə qazanılan mallar batildir. İslam hüququ rükünləri, şərtləri tam, ya da qismən əskik olan ibadətləri də batil sayır.

Toplasaq, deyə bilərik ki, mənasız, məqsədsiz olan hər şey batildir, batil yox olmağa məhkumdur, bunun tək şərti də haqqın öz yerini tutmasıdır.

Bu izahlar işığında ayənin birinci bölümünü yenidən oxuyaq: "Haqqı batilə qarışdırmayın...". Yəni, ey İsrail oğulları, batilə haqq donu geyindirməyin, batil olanı haqq olanla qarışdırsanız, batil haqq olmaz, ancaq haqq haqq olmaq özəlliyini itirər. Bu şirkdir: "Şirk saf batil deyil, içərisinə haqq qarışdırılmış batildir".

Haqqı batilə qarışdırmaq buna bənzəyir: bir qab zəhərli suyunuz olsa, ona nə qədər təmiz su töksəniz də, o təmiz sayılmaz. Ancaq bir qab təmiz suya bir damcı zəhər qatsanız, tərkibi dəyişər, zəhər olar. Ona görə də xurafələr zəhərdir (mikrobdur), həqiqətin içinə girəndə onu yox edir (hər xürafənin arxasında bu üç şey var: cəhalət, yanlış inanc, mənfəət (çıxar)).

Haqqı batilə qarışdırmaq:

***- Tövratın mətnini təhrif etməkdir;***

***- batili haqq kimi göstərməkdir;***

***- haqqı batilə bənzətməkdir;***

***- haqqı gözləməməkdir;***

***- Allah Rəsulunun gələcəyini, özəlliklərini ifadə edən Tövrat ayələrini mətndən çıxarmaqdır;***

***- haqq Tövratdakı Allah Rəsulu ilə bağlı ayələrdir, batil isə bu ayələrin üstünü örtməkdir, küfürdür;***

***- Abdullah bin Abbasa görə doğruları yalana qarışdırmaqdır;***

***- İbn Zeydə görə hz.Musya nazil olan əsl Tövratı uydurduqları Tövrata qarışdırmaqdır;***

***- Mücahidə görə uydurulmuş yəhudilik və xristianlığı İslama qarışdırmaqdır;***

***- Allahın nazil etdiyi haqqı öz əlləri ilə yazdıqları batilə qarışdıraraq Tövratda olmayan şeyləri Onda varmış kimi göstərmək, haqq ilə batili bir-birindən seçməyi imkansız hala gətirməkdir;***

***- haqqı şübhəli hala gətirməkdir;***

***- Tövrat ayələrini yanlış izah etməkdir;***

***- Tövrat ayələrini dəyişdirməkdir;***

***- Tövrat ayələrini gizləməkdir;***

***- ayələr uydurmaqdır;***

***- anlayışlara yanlış məna verməkdir;***

***- şübhə oyandırmaq, fitnə çıxarmaq, düşüncələri qarışdırmaqdır;***

***- haqqı açıqlamamaqdır;***

***- ayələri bağlamından qoparmaqdır;***

Allah buyurur ki, haqqı batilə qarışdırmaq zülmdür, haqsızlıqdır, cəzası ağırdır.

Qeyd edək ki, haqqı batilə qarışdırmaq işi bu gün də davam edir: Qurani-Kərimin ayələrini yanlış izah etmək, ayələri bağlamından qopararaq məna yükləmək, ayələr arasında əlaqə qurmadan oxumaq, Qurani-Kərimə məzhəbçi baxışla yanaşmaq, xurafələr uydurmaq, alternativ din qaynaqları ***"kəşf etmək",*** Qurani-Kərimi həyatdan qoparmaq, Onu ölü kitabına, muzey əşyasına çevirmək, tarixə gömmək, halalı haram, haramı halal elan etmək ... də haqqı batilə qarışdırmaqdır.

**1) "... Bildiyiniz halda haqqı gizləməyin!"**

İsrail oğullarının nəyi bildiklərini Qurani-Kərim açıqca ifadə etmişdir: onlar hz.Məhəmmədin Allahın elçisi, Qurani-Kərimin də vəhy olduğunu bilirdilər: ***"Vəhy göndərilənlər (Kitab verdiklərimiz) onu (hz.Məhəmmədi) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Buna baxmayaraq, onların çoxu bildikləri halda, israrlı gerçəyi gizləyirlər (gizləyərlər)"*** (Bəqərə, 2/146).

İsrail oğulları bir elçinin gələcəyini bilirdilər. Buna da Qurani-Kərim şahidlik edir: ***"İman edənlərlə görüşəndə: "İman etdik", - deyirlər. Bir-biriləri ilə baş-başa qaldıqlarında isə (ağıl xocaları "iman etdik" deyənlərə): "Rəbbinizin yanında sizə qarşı bir dəlil olsun deyəmi Allahın sizə açdığı şeyi onlara xəbər verirsiniz? Bu qədərini düşünə bilmirsinizmi?" - deyirlər"*** (Bəqərə, 2/76).

Hz.Məhəmmədin elçi olaraq göndəriləcəyinə Tövrat da şahidlik edir: ***"Tanrı Rəbb sizin üçün aranızdan, qardaşlarınızın içindən mənim kimi bir elçi çıxaracaq, siz onu dinləyəcəksiniz" (Təsniyə, 18/15; Təkvin, 21/21). "Qardaşların arasından onlara sənin kimi bir elçi göndərəcəyəm və onun ağzına öz sözlərimi qoyacağam"*** (Təsniyə, 18/18; 33/2).

Seçilmiş xalq olduğunu zənn edənlər qısqanclıqları üzündən onlardan olmayan elçini qəbul etmək istəmirlər. Ona görə də Tövratdakı Allah Rəsulu ilə bağlı ayələri gizləyir, həqiqəti söyləmir, Tövratı təhrif edirlər...

***"Gerçəyi bildiyiniz halda (bilə-bilə)",*** yəni Allah Rəsulunun gələcəyini kitabınızdan yüzdə yüz bilirsiniz, bilə-bilə (şüurlu şəkildə, məqsədli olaraq) haqqı batilə qarışdırır, Tövratı dəyişdirir, həqiqəti şəxsi çıxarlarınıza qurban edirsiniz. Haqqı bilə-bilə (qəsdən) gizləmək çox çirkin bir davranışdır.

**QIRX ÜÇÜNCÜ AYƏNİN ANLAMI**

***"Namazı istiqamətlə qılın, zəkatı ürəkdən (sevərək) verin, Allaha rüku edənlərlə birlikdə siz də rüku edin!"***

**1) "Namazı istiqamətlə qılın...!"**

Ayədə üç əmr var (əmr İsrail oğullarına olsa da, ünvan bütün insanlardır). Birinci əmr namazı istiqamətlə (dosdoğru) qılmaqla bağlıdır. İndi öncəki ayələrlə bağ quraq: Allah qırxıncı ayədən başlayaraq İsrail oğullarına müraciət edir: bir dönəm sizə verdiyim nemətlərimi xatırlayın, Mənə verdiyiniz sözü yerinə yetirin ki, Mən də sizə olan vədimi tamamlayım, sadəcə Məndən qorxun (qayğınızın mərkəzində sadəcə Mən olum), Tövratı təsdiq edən Qurani-Kərimə inanın, Onu inkar edənlərin öncüsü olmayın, ayələrimi bəsit çıxarlar qarşılığında satmayın, haqqı batilə qarışdırmayın, bildiyiniz halda haqqı gizləməyin...



Sıradakı əmr gəlir: namazı (səlatı) istiqamətlə qılın. Öncə onu deyək ki, namaz qılmaq bütün elçilərə əmr olunmuşdur (o, hz.Məhəmmədlə başlamış bir ibadət deyil):

***- səlat (namaz) bütün elçilərə əmr edilmişdir; (Ənbiya, 21/73)***

***- hz.İsmayıl ev xalqına səlatı (namazı) əmr etmişdir; (Məryəm, 19/55)***

***- səlat (namaz) İsrail oğullarından alınan beş sözdən biridir; (Bəqərə, 2/83)***

***- hz.Musaya tövhiddən sonra səlat əmr olunmuşdur; (Taha, 20/14)***

***- Loğman oğluna səlatla (namazla) bağlı öyüd vermişdir; (Loğman, 31/17)***

***- Məryəm oğlu İsaya əmr edilən iki ölçüdən biri səlatdır; (Məryəm, 19/31)***

***- səlat öncəki vəhylərin mənsublarına əmr olunmuşdur; (Beyyinə, 98/5)***

Allah İsrail oğullarına bildikləri bir ibadəti əmr edir, sadəcə namaz qılın demir, namazı istiqamətlə qılın (onu iqamə edin, ayağa qaldırın, namaz da sizi qılsın, yəni namaz sizi tərbiyə etsin) buyurur. Namazı (səlatı) istiqamət üzrə qılmaq bu anlamları daşıyır:

***- namazı şüurlu qılın, mənasını, məqsədini anlayın, hədəfini yerinə yetirin (namazın iki məqsədi var: Allahı insana xatırladır, insanı pisliklərdən qoruyur);***

***- niyyətiniz doğru olsun, namazın dəyərini qavrayın;***

***- namazla həyat arasında bağ qurun, onun dəyərlərini həyatınıza daşıyın;***

***- namazın zahiri şərtlərini tam yerinə yetirin;***

***- namazı istiqamət üzrə qılmaq tövhid inancının tələbidir (Allaha səmimi imanın göstəricisidir);***

***- namazı Allaha xas qılın;***

***- namazla sosial həyat arasında bağ qurun (məsələn, yetimləri qoruyun);***

***- bilin ki, namaza qeyri-ciddi münasibət Allaha, Onun dininə qeyri-ciddi münasibətdir (Allah Ona ciddi yanaşmayanı ciddiyə almaz);***

***- məqsədini gerçəkləşdirməyən namaz anlamını itirər;***

***- namazın fərzlərinə əməl edin;***

***- huşu-tam təslimiyyətlə namaz qılın;***

***- vaxtında qılın;***

***- davamlı qılın;***

***- haqqı verilərək qılınan namaz insanı pisliklərdən qoruyar;***

***- namazın güc qaynağı olduğunu bilin;***

***- namaz ruzidir;***

***- ibadət ancaq Allahadır, yalnız Ona qulluq etməklə şirkdən qurtulub azadlığa qovuşmaq olar;***

***- namazınızda diqqətli, davamlı olun;***

***- namaz qaydasına uyğun olaraq, yəni fərzləri, tilavəti, üsulu, ədəbi, vaxtı, davamlılığı yerinə yetirilərək qılınmalıdır; (Siracəddin Hacı, Bəqərə surəsinin mesajları (1-5-ci ayələr), s. 112-113).***

İmam Maturidi ***"namazı istiqamətlə qılın"*** ayəsi ilə bağlı bunları yazır: ***"Ayədəki namaz qılma və zəkat vermə buyruğu İsrail oğullarının namazlarının gerçək anlamda namaz, zəkatlarının da gerçək mənada zəkat olması anlamına da gələ bilər... Belə ki onlar kitab əhli olub namaz qılır, zəkat, sədəqə verirdilər. Ancaq onların namaz və zəkatları imanla birlikdə olmadığından Allaha yönəlik deyildi. Ayədə onların namazlarının gerçək mənada namaz ola bilməsi üçün iman etmələri əmr edilmişdir...".***

İslam alimləri ayəyə bu anlamları da vermişlər: ey İsrail oğulları, siz də müsəlmanlara fərz olan namaz kimi namaz qılın, zəkat verin, müsəlmanlarla birlikdə namaz qılın, mallarınızın zəkatını layiq olanlara verin, itaət edənlərlə birlikdə siz də Allaha boyun əyin, tövbə edib Allaha yönəlin, Allah Rəsulunun elçiliyinin dəlili (Tövrat ayələri) ortada ola-ola Onu inkar etməyin.

**2) "... Zəkatı ürəkdən (sevərək) verin..."**

Səlat kimi zəkat da səmavi dinlərin təməl və ortaq nöqtələrindən (anlayışlarından) biridir. ***"Zəkat"*** sözü ərəbcədir, Qurani-Kərimdə eyni kökdən olan sözlər altmış kərə işlədilmişdir, bu anlamları var:

***- "arınmaq": "Allahın sizə mərhəməti olmasa idi, heç biriniz əbədiyyən arınmazdınız"; (Nur, 24/21)***

***- "daha yaxşı, daha uyğun": "İndi siz bu gümüş pul ilə birinizi şəhərə göndərin, baxsın ki, hansı yeyəcək (qida) daha yaxşıdır, ondan sizə alıb gətirsin"; (Kəhf, 18/19)***

***- "günahsız": "Yenə yürüyüb getdilər, nəhayət, bir oğlan uşağı ilə rastlaşdılar. O anda uşağı öldürdü. Musa: "Bir can qarşılığı olmadan günahsız bir cana qıydınmı?" - dedi"; (Kəhf, 18/74)***

***- "zəkat": "Namazı istiqamətlə qılın, zəkatı könüldən (sevə-sevə) verin"; (Bəqərə, 2/110)***

Rağıb əl-İsfahani yazır ki, "zəkat" sözünün əsl anlamı Allahın bərəkətindən qaynaqlanan artışdır... Zəkata bu adın verilməsi ondan umulan bərəkətdən, ya da nəfsin arındırılmasından, yəni nəfsin xeyir və bərəkətlərlə kamilləşməsindən dolayıdır (ötrüdür). Bu xeyirin ikisi də zəkatda var. İnsan nəfsi təmizlənərək bu dünyada öygüyə layiq keyfiyyətlər qazanar, axirətdə də mükafatı haqq edər...

Zəkatın hədəfi nəfsi təmizləmək, insanı malın köləliyindən qurtarmaq, qardaşlıq duyğularını gücləndirməkdir. Bu təmizləmə işi Qurani-Kərimdə bəzən insana aid edilir: ***"Nəfsini arındıran gerçəkdən qurtulmuşdur"*** (Şəms, 91/9). Bəzən elçiyə aid edilir: ***"Onların mallarından onları təmizləyəcəyin, ucaldacağın bir sədəqə al"*** (Tövbə, 9/103). Bəzən də ibadətə aid edilir: ***"... Bir qəlb yumşaqlığı, bir təmizlik verdik"*** (Məryəm, 19/13).

***Ardı var...***

**Siracəddin Hacı**

# Ali Attestasiya Komissiyasında tüğyan edən rüşvətxorluq barədə

**Ölkəmizdə elmlə məşğul olan gənclərin böyük əksəriyyəti Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında hökm sürən qanunsuzluqlar, rüşvət və korrupsiya hallarının baş alıb getdiyini, gənclərin elmə gedən yollarının qarşısında süni əngəllər yaradıldığını bildirirlər.**

Milli Elmlər Akademiyasının, nəhəng ali məktəblərinin elmi seminarların, elmi şuraların görkəmli alimləri qarşısında imtahanlarından uğurla keçən gənclərin böyük əksəriyyəti Ali Attestasiya Komissiyasının müəyyən etdiyi “ağır şərtləri” yerinə yetirmir, elmi ad və dərəcə almırlar.

Təbii ki, kimin yaxşı əlaqələri, maddi imkanı var, onlar bu problemlə qarşılaşmır, əsasən elmi-tədqiqat institutlarında və tədris müəssisələrində cüzi əmək haqqı ilə çalışan, gecə-gündüz tədqiqat aparan imkansız gənclər bu problemi yaşayırlar. Bu günlərdə redaksiyamıza gələn və artıq ikinci ildir AAK-dan diplomunu ala bilməyən bir qrup gənc Ali Attestasiya Komissiyasının binası qarşısında piket keçirmək istədiklərini bəyan eydilər. AAK-ın sədri, əslində iqtisadçı, 90-cı illərdə isə bir çoxları kimi, BDU-dan hüquqşünas diplomu alan Famil Front oğlu Mustafayevə, onun əlaltılarına istefa tələb edəcəklərini bildirdilər.

Həmin gənclərin şikayətlərini araşdırdığımız məqamda ölkə mətbuatında Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin açıqlaması yayıldı - Ali Attestasiya Komissiyasının iqtisadiyyat üzrə Ekspert Şurasının üzvü və katibi Şəfa Əliyev rüşvət alarkən yaxalanıb.

Ardınca məlum oldu ki, xaricdə istirahətdə olan Famil Front oğlu Mustafayev təcili olsraq ölkəyə qaytarılıb. İnformasiyada o da bildirilirdi ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əməliyyat-axtarış işlərini davam etdirir və AAK-da yeni ciddi yoxlamalar aparmaq fikrindədir. Həqiqətən, AAK-da Baş Prokurorluğun əməliyyat-axtarış işləri davam etməkdədir.

Amma həmin informasiyadan dərhal sonra Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyası açıqlama verərək, məsuliyyətə cəlb edilən mütəxəssis-ekspert Şəfa Əliyevin komissiyanın əməkdaşı olmadığını bildirib və günahı öz üzərindən atmağa cəhd edib. Fəqət, biz AAK-ın bəyanatını özünü sığortalama, yaxud faktı ört-basdır etmə addımı hesab edirik.

Birincisi, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bəyan edir ki, «hazırda iş üzrə qanunazidd hərəkətlərə yol vermiş digər şəxslərin müəyyən edilməsi istiqamətində də əməliyyat-istintaq tədbirləri davam etdirilir». Bu isə, o deməkdir ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində AAK-da rüşvətalma halları ilə bağlı digər faktlar da araşdırılır.

İkincisi, cəmiyyətdə AAK-ın elmi adları və dərəcələri müxtəlif qiymətlərə satması faktlar barədə mediada kifayət qədər geniş informasiyalar yayılıb. Bəziləri son dövrdə fəlsəfə doktoru adı almaq üçün rüşvətin 10 min manatdan 40 min manata qaldırıldığını bildirir. Həm də bu rəqəmləri adi insanlar deyil, Milli Məclisin deputatları, ölkənin tanınmış təhsil ekspertləri, görkəmli alimlər dilə gətirirlər.

Ali Attestasiya Komissiyası açıqlamasında Şəfa Əliyevin onların əməkdaşı olmadığını, sadəcə olaraq seçimlərində yanıldıqlarını vurğulamaqla bunun təsadüfi fakt olmasını qabartmağa çalışır. Doğrudanmı bu təsadüfi faktdır? Cəmiyyətin elmlə maraqlanan böyük bir hissəsi bunu AAK üçün təsadüfi fakt hesab etmir.

Çünki hələ bu ilin mart-aprel aylarında və ondan da xeyli öncə ölkə mətbuatı həyacan təbili çalaraq, AAK-da rüşvətin meydan suladığını, elmi ad və dərəcələrə görə böyük məbləğdə rüşvət tələb edildiyini yazırdı. Özü də təkcə iqtisadiyyat üzrə deyil, filologiya, tarix, hüquq və digər sahələrdə də vəziyyətin ağır olduğu bildirilir. Gəlin, bəzi faktlara müraciət edək!

Tribuna.az saytının 15 mart 2023-cü ildə “Təhsil eksperti Ali Attestasiya Komisiyyasındakı korrupsiyadan danışdı” adlı məqaləsində oxuyuruq: “AAK-da elmi adların verilməsində alimlərin qarşısına minimum 20 min manat tələb qoyulub”. Tanınmış alim, professor İdris Abbasov AAK-da rüşvətlə bağlı konkret rəqəmlərdən yazırdı: “20 min manatlıq elmi ad, 30 min manatlıq elmi dərəcə”. Sözçü.az saytında gedən “Attestasiya komissiyasında rüşvətxorluq, qohumbazlıqdır” adlı yazıda isə tanınmış təhsil eksperti Kamran Əsədov Azərbaycanda elmi adların daha çox məmurlara verildiyini bildirirdi.

O, yazırdı: “Buna da səbəb AAK-dakı özbaşınalıq, rüşvət, qohumbazlıqdı. Məsələn, dəfələrlə şahidi olmuşuq ki, icra hakimiyyətində və yaxud dövlət strukturlarında çalışan şəxslər, deputatlar, dövlət qulluqçusu olan şəxslər elmi adları daha rahatlıqla alırlar. Amma həqiqətən tədqiqatla məşğul olan, elmi işlə məşğul olanlar bu prosesdən kənarda qalıb”. Ekspert daha sonra AAK-ın lazımsız bir qurum kimi ləğv olunmasının zəruriliyini bildirir.

Ümumiyyətlə, AAK-da şəffaflıq olmaması, xüsusi “qara oppanentlərin” əli ilə qəsdən mənfi rəylərin yazdırılması, qurumun “gestapo” kimi qapılarını vətəndaşların üzünə bağlaması, şəffaflıqdan uzaq fəaliyyəti ilə bağlı alimlər çoxdan həyəcan təbili çalır, qurumun fəaliyyətində qaranlıq və şübhəli məqamlar olduğunu açıq-aşkar şəkildə bildirilirdi.

Bunun əvəzində isə AAK qapıları daha kip bağlayır, mühafizə polisini gücləndirir, AAK-ın qapısında içəri yalnız yüksək ranqlı məmurların girişinə icazə verirdi. Son aylar hətta qurumda telefonlara da cavab verilmir. AAK-la əlaqə saxlamaq çox ciddi problemə çevrilmişdi. Sual doğur: Əgər sənin fəaliyyətin şəffafdırsa, onda niyə qapılarını vətəndaşların, alimlərin üzünə çox kip bağlayırsan?




Deputat Etibar Əliyev haqlı olaraq Milli Məclisin tribunasından rüşvət, korrupsiyadan başqa bir fəaliyyəti olmayan, elmə yalnız əngəl olan AAK-ı lazımsız qurum adlandıraraq, onun ləğv olunmasını təklif etmişdi. Bütün bunlar bir daha göstərir ki, professor Şəfa Əliyevin AAK-ın Ekspert Şurasının üzvü və katibi kimi rüşvət üstündə yaxalanması heç də təsadüfi hadisə deyil.

Əgər bu ilin mart ayında, aprel, may, iyun ayında mətbuatda AAK-da rüşvətlə bağlı materiallar gedibsə, iyul ayında AAK-ın katibi rüşvət aldığına görə yaxalanıbsa, deməli bu, təsadüf yox, ardıcıl görülən işin nəticəsidir. AAK-ın isə günahı tələsik öz üzərindən atması, “o, bizim əməkdaş deyil, Sumqayıt Dövlət Universitetinin professorudur deməsi” özü də bu şübhələri qüvvətləndirir. AAK-ın açıqlamasında professor Şəfa Əliyevin Sumqayıt Dövlət Universitetində çalışdığı xüsusi vurğulanır, əslində isə, SDU-nun bura heç bir aidiyyatı yoxdur, çünki professor Şəfa Əliyev universitetdəki vəzifəsinə görə deyil, məhz AAK-dakı vəzifəsinə görə rüşvət alıb. Bu quruma isə, birbaşa Famil Front oğlu Mustafayev cavabdehdir.

Keçək başqa bir fakta. Gəncə Dövlət Universitetinin dosenti, fəxri professor Cəfər İbrahimovun Asiya.az-a ünvanladığı məktuba nəzər yetirək: “Ali Attestasiya Komissiyasında dissertasiyanı pulu ilə yazdırıb, içindən xəbəri olmayan adamı Ekspert komissiyasından müsbət rəylə keçirib diplom verirlər. Dissertasiyasındakı uzun sözləri, çoxhecalı sözləri belə tələffüz edə bilməyən, pedaqogikadan xəbəri olmayan adam pul verib alim adı alır”. Yazı konkret fakta söykənir.

“Qasımova Həmidə İsgəndər qızı 27.05.2022-ci ildə 5804.01 – “Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi” şifri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün “Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətinin formalaşdırılması üzrə işin sistemi” mövzusunda dissertasiya işi müdafiə edib. Bu dissertasiya işini rüşvət müqabilində onun elmi rəhbəri, pedaqoji elmlər doktoru, professor Akif Abbasov yazıb”. Kimdir bu Həmidə Abbasova? Professor yazır: “AAK sədri F. Mustafayevin təməlini qoyduğu rüşvət və fırıldaq yollarla alim adı alan Həmidə Qasımova Gəncə Dövlət Universitetinin rekroru Yusif Yusibovun keçmiş katibəsidi”.

Famil Mustafayevin rəhbərliyi altında fəaliyyət göstərən AAK, yuxarıda qeyd etdiyimiz kimi, daha çox məmurlara, onların qohum-əqrəbasına və katibələrinə xidmət edir. Sözü düz tələffüz edə bilməyən adama elmi diplom verilir, ciddi tədqiqat işləri isə illərlə rəflərdə saxlanır.

GundemXeber.Az-ın apardığı araşdırmalardan məlum olur ki, AAK-da son dövrlərdə rüşvət və korrupsiyanın meydanı daha da genişlənib. Bəzi faktlara müraciət edək, AAK eyni ali təhsil müəssisindən gəlmiş iddiaçılardan birinin sənədini qəbul edir, ona elmi dərəcə və diplom verir, digərinə isə, həmin ali məktəbin DİM-dən kənar qəbul apardığını bəhanə edərək imtina edqir.

Mən hazırda fəaliyyətinə xitam verilmiş İslam Universiteti ilə bağlı onlarla belə fakt göstərə bilərəm. Vaxtilə həmin universiteti “hansı yollasa bitirmiş” şəxslərin bəzilərinə elmi dərəcələr və adlar verilmiş, həmin universiteti bitirmiş və həqiqi tədqiqatla məşğul olan bir çox istedadlı gəncin işi isə “məhz həmin universitetdə təhsil aldığına görə” geri qaytarılmışdır. Ortada rüşvət faktı yoxdursa, onda bu, nədir? İnanırıq ki, prokurorluq bu məsələlərə də aydınlıq gətirəcək.

AAK son illərdə tərtib etdiyi sənədlərdə, tələbnamələrində qəsdən elə dolaşıqlıja yol verib ki, həmin baryerləri rüşvətsiz keçmək, demək olar ki, mümkünsüzdür. Və AAK həmin sənədlərdən çıxış edərək neçə-neçə istedadlı, ancaq imkansız, gəncə “sizin baza təhsiliniz, magistratura təhsiliniz müdafiənizə uyğun deyil” deyib, imtina göndərdiyi halda, keçmiş dövlət məmuru Həsən Həsənovun diş texniki olan oğlu Zaur Həsənova tarix üzrə elmlər doktoru adı almaq üçün müdafiəyə icazə verir. Bəs bu, necə olur?

Bütün dövrlərdə AAK-da rüşvət olub, amma Famil Front oğlu Mustafayev AAK-a sədr təyin ediləndən sonra elmi ad və dərəcələrin rüşvətlə verilməsi halları kütləviləşib. ”Əgər rəhbər rüşvət almasa, heç kim rüşvət ala bilməz” - deyimi çoxdan sınaqdan çıxıb.

Paralel.az saytı olaraq hər il bir neçə dəfə AAK-da sədr F. F. Mustafayevin rüşvətxorluğu barədə, tutarlı faktlar əsasında, yazılar dərc olunub, lakin təəssüf ki, bu yazılar AAK sədrinin tərbiyə olub, düz yolla qayıtmasına təsir etməyib...

# Varisin ədalət axtarışı

## Sara Srayevanın səksəkəli taleyi

*(Əvvəli ötən sayımızda)*

1961-ci ilin sentyabrında Azərbaycan Kommunist Partiyasının XXV qurultayı işə başlayanda Sara Sarayeva atasının adının, onun xeyirxah əməllərinin obyektiv işıqlandırılması ilə bağlı qurultaya 10 səhifəlik geniş müraciət göndərdi. Həmin vaxt qurultaya ünvanlanmış bir sıra ərizə və şikayətlər təcili şəkildə həll edilsə də, onun müraciətinə müsbət yanaşılmadı. Yalnız iki ay sonra Mərkəzi Komitənin məsul işçisi Məmməd Əmin Qazıyev onun məktubu ilə bağlı Azərbaycan KP MK-ya qısa arayış hazırladı. O, yazırdı ki, "Azərbaycan Kommunist Partiyasının XXV qurultayının adına vətəndaş Sara Sarayevanın müraciəti daxil olmuşdur. Uzun müddətdir bu mövzuda partiya və dövlət orqanlarına müraciət edən Sarayeva atası, inqilaba qədərki Azərbaycanın məşhur neft sənayeçisi Hacı Zeynalabdin Tağıyevin fəaliyyətinin sovet tarix ədəbiyyatında doğru işıqlandırılmamasından şikayət edir. O, tələb edir ki, mövcud tarix ədəbiyyatında onun atasının adı və əməllərinin qiymətləndirilməsinə yenidən baxılsın, Tağıyev mütərəqqi xadim kimi təqdim edilsin. Bunu əsaslandırmaq üçün o, Tağıyevin birinci kənd təsərrüfatı məktəbi, Azərbaycan qadın məktəbi açmasına, milli teatr tikməsinə istinad edir. Məlumdur ki, belə maarifçi fəaliyyətinə baxmayaraq milli burzuaziyanın tipik nümayəndəsi kimi Tağıyev iri istismarçı kapitalist olmuş, öz sinfinin maraqlarını güdmüşdür. Ona görə də onun fəaliyyətinə yenidən baxmağa zərurət yoxdur. Tağıyevin maarif və mədəniyyət sahəsində roluna gəldikdə, bu rol respublika alimlərinin əsərlərində əsasən doğru işıqlandırılır. Vətəndaş Sara Sarayevanın tələbələr, aspirantlar və digərləri ilə söhbətlərdə az qala Tağıyevi inqilabçı kimi təqdim etməsini, daimi olaraq atası haqqında müxtəlif şəxslərdən xatirələr toplamasını nəzərə alaraq, onun bu işlərə son qoyması haqqında çalışdığı orqana ciddi şəkildə xəbərdarlıq edilməsi məqsədəuyğundur."



Sara xanım 1961-ci ildə Sov.İKP MK-ya yenidən 7 səhifəlik məktub yazıb bildirmişdi ki, onun atası maarifçi olub, məktəblər açıb və Sovet hakimiyyətinin ilk illərində Azərbaycana rəhbərlik edən şəxslərin bəziləri məhz onun atasının ayırdığı vəsaitlər hesabına təhsil alıblar. O, bildirirdi ki, Azərbaycan Sovet tarixçiləri Tağıyevin fəaliyyətini təhrif edirlər və tələb edirdi ki, onun atasının maarifpərvər əməlləri haqqında ayrıca kitab yazılmalıdır. Sov.İKP MK elm və məktəblər şöbəsinin müdir müavini A.Monin onun məktubunu araşdırmaq üçün Azərbaycan KP MK-nın elm və məktəblər şöbəsinə göndərdi, Monin xahiş etdi ki, araşdırmadan sonra Sara Sarayevaya cavab verilsin və onun məktubu cavabla birlikdə geri göndərilsin.1 Məktubda qeyd edilən məsələlər ətrafında Sara xanımla söhbət edildikdən sonra Azərbaycan KP MKnın elm və məktəblər şöbəsi tərəfindən Moskvaya göndərilən cavabda yazılırdı: "Yoldaş Sara Sarayevaya izah edildi ki, onun atasının maarifçilik fəaliyyətinə həsr edilmiş ayrıca monoqrafiya nəşr edilməyəcək, lakin Azərbaycan xalq təhsili tarixinə həsr olunmuş bu və ya digər işlərdə Hacı Zeynalabdin Tağıyevin bu sahədəki xidmətləri qeyd ediləcəkdir. Eyni zamanda ona izah edildi ki, atasının fəaliyyətinin qiymətləndirilməsində heç bir təhriflərə yol verilməyib, belə ki, neft sənayeçisi olan Tağıyev məktəblərlə yanaşı həbsxanalara da maddi yardım göstərib. Yoldaş Sarayeva onun tərəfindən qoyulan məsələnin belə həlli ilə razılaşmadı. Məktubun sonunda qeyd edilirdi ki, yoldaş Sarayeva 1954-cü ildən şizofreniya xəstəliyindən əziyyət çəkir, Bakı psixonevroloji dispanserində stasionar müalicə alıb və öz xəstəliyi ilə bağlı hazırda orada qeydiyyatdadır.





Азәрбајҹан ССР
ЕЛМЛӘР АКАДЕМИЈАСЫ
АКАДЕМИЯ НАУК
Азербайджанской ССР
21 апреля 1975
Арх № 13
Бакы шәһ., Коммунист күчәси, № 10
г. Баку, ул. Коммунистическая, 10

130

Тов. САРАЕВОЙ С.З.

В ответ на Ваше заявление от II марта 1975 года сообщаем что, архивные справки биографического характера выдаются на руки трудящимся. А любые копии и выписки из документов выдаются только по запросам заинтересованных учреждении

( Основные правила постановки документальной части делопроизводства и работы архивов учреждении, организации и предприятии СССР. пункт 182.).

Управляющий Делами
Академии наук Азерб.ССР — АГАЕВ Ф.М.

Зав. Центр.архивом
Академиинаук Азерб.ССР — Новрузова Р.А.

Bütün təhdidlərə, təzyiqlərə və məhrumiyyətlərə baxmayaraq Sara xanım öz mübarizəsini ötən əsrin 60-80-cı illərində də davam etdirdi, döymədiyi qapı qalmadı, yazmadığı yer qalmadı. Sovetlər Birliyi dağılana qədər o, mübarizəsini dayandırmadı. Ən ağır məhrumiyyətlərə dözdü. Çəkdiyi bütün əzablar və məşəqqətlərə rəğmən Sara xanım gənc yaşlarından etibarən faciəvi dedektivi xatırladan 92 illik uzun bir ömür yaşadı. O, SSRİ-nin dağılmasını, atasının adına və əməllərinə sayğı ilə yanaşılmasını gördü və 1991-ci il dekabrın 15-də vəfat etdi. Hörmət əlaməti olaraq onu Mərdəkan məzarlığında atası Hacı Zeynalabdin Tağıyevin bərpa olunmuş qəbrinin yanında dəfn etdilər. Onun keçdiyi həyat yolu dedektiv xarakterli bədii filmin mövzusu ola bilər, o, Sovet dövründə bir sistemə qarşı dayanmağın örnəyini yaratdı. Bu bədii ədəbiyyat üçün təkrarsız bir obrazdır. Ən azından o, tarix sahəsində maraqlı bir dissertasiya işinin mövzusu ola bilər. Amma nə bu filmin çəkilməsinə, nə bu bədii əsərin yazılmasına, nə də bu dissertasiya işinin araşdırılmasına təşəbbüs edən yoxdur. Adam dramatik, əfsanəyə bənzər bir həyat yaşayıb. Aşağıda qoyduğum sənədlər də bunu təsdiq edir.



**Professor Cəmil Həsənli**

# Tüstülü kabinetlərdə dumanlı başlar

## Yeltsin alt paltarında küçəyə çıxmaq istəyəndə...





Ayrı-ayrı dövrlərdə dövlət başçıları olmuş siyasi liderlərin həyat tərzini araşdıranda məlum olur ki, müasir siyasətçilər əvvəlkilərlə müqayisədə sağlam həyat tərzinə daha çox üstünlük verirlər. Hazırkı dövrdə birinci kürsüdə əyləşənlərin demək olar ki, əksəri ziyanlı vərdişlərdən uzaqdırlar, xüsusilə də alkoqol və tütün məmulatlarından istifadə etmirlər. Bu gün bir çox prezidentlərin sağlam həyat tərzlərini nümunə kimi göstərmək olar. XX əsrin nəhəng siyasətçiləri isə bu məsələyə dırnaqarası baxıblar.

Dünyanın 100 ən çox öyrənilən şəxslərindən biri olan Uinston Çörçillin lüğətində ümumiyyətlə "sağlam həyat tərzi" ifadəsi olmayıb. Günə 8-12 siqar çəkən baş nazir həyatını tütün məmulatlarısız təsəvvür etməyib. Hətta bunu özü də etiraf edib: "Yəqin ki, istər şəkillərdə, istərsə də həyatda məni siqarsız görsəniz, tanımayacaqsınız ”

Britaniyalı siyasətçinin menyusundan viski də əskik olmayıb. Çörçillin alkoqola və tütünə aludəçiliyi o həddə çatıb ki, yaşadığı iqamətgahda 5-6 ilə bəs edəcək qədər alkoqol və tütün ehtiyatı saxlanılıb. Xarici ölkələrə səfər edərkən baş nazir üçün istifadə edəcək alkoqol və tütün tədarükü görülüb.

30 ilə yaxın bir müddətdə SSRİ-yə rəhbərlik edən İosif Stalin qəddarlığı, sərtliyi, anlaşılmazlığı ilə yanaşı, həm də əlindən düşməyən qəlyanı ilə yadda qalıb.

O, daha çox "Herseqovina Flor" tütününə üstünlük verib. Sovet liderinin böyük bir qəlyan kolleksiyası da olub. Stalinin kabinetində, Kremldəki mənzilində, bağında bütün otaqlarda – iş otağında, ziyafət zalında, yataq otağında, hətta hamamda belə qəlyan, müxtəlif papiros qutuları, siqar, tütün, kibrit əskik olmayıb. Stalin özünü alkoqollu içkilərdən də məhrum etməyib. Bağında silahdaşları üçün tez-tez təşkil olunan ziyafətlərdə masanın üzərinə çeşid-çeşid içkilər düzülüb. Stalin daha çox Gürcüstanda onun üçün məxsusi hazırlanmış şərablara üstünlük verib. Həkimlər sovet liderinə tütün və alkoqolu qadağan edəndə o, başını tərpədərək razılaşdığını bildirib. Amma bu "razılıq" elə həmin gün pozulub.

Nikita Xruşov tütünə çox da həvəs göstərməyib.

Amma alkoqol məsələsində həmkarlarından heç də geri qalmayıb. Onsuz da çılğın xarakterə malik olan Xruşov bir neçə qədəhdən sonra daha da coşqun olub. Yaxın silahdaşları və ailə üzvləri sovet liderinə alkoqoldan məhdudiyyətlə istifadə etməyi tövsiyə ediblər. Bu tövsiyələr nəticəsiz qalanda baş katibin kürəkəni fərqli bir çıxış yolu tapıb. O, Xruşov üçün Almaniyada xüsusi qədəh düzəltdirib. Bu qədəhin sirri ondan ibarət olub ki, onun dibi təxminən ortasına qədər büllur şüşə ilə cilalanıb. Yəni kənardan 100 qram tutumu ilə görünən qədəh əslində 50 qram tutumunda olub. Müasirlərinin yazdıqlarına görə, Kremldə ziyafətlərin təşkilində və həmin məclislərdə məhdudiyyətsiz alkoqoldan istifadənin əsas təşəbbüskarı məhz Xruşov olub. Xarici dövlətlərdən gələn qonaqları isə Xruşov həmişə sərxoş vəziyyətə salmağa çalışıb. Belə ki, sovet liderinin sərxoş həmkarları ilə siyasi sövdələşməsi daha rahat alınıb.

XX əsrin ən nəhəng siyasətçilərindən biri sayılan ABŞ prezidenti (1933-1945) Franklin Ruzvelt tütün və alkoqol məsələsində həmkarları ilə ayaqlaşa bilməyib.

Prezident olduqca ciddi şəkildə həm həyat yoldaşının, həm də həkimlərin nəzarətində olub. Tütünün və alkoqolun qədərini bilən Ruzvelt mövzu ilə bağlı Çörçillə tez-tez zarafat da edib. Səfərlərin birində Amerika prezidenti britaniyalı baş nazirlə hava limanında görüşəndə "təəccüblə" soruşub:

- Cənab Çörçill, bəs ikinci təyyarə nə vaxt eniş edəcək?
- Hansı təyyarə, bizim nümayəndə heyəti hamısı yerindədir.
- Sizə viski və siqar daşıyan təyyarəni soruşuram...

Kuba lideri Fidel Kastro ilk siqarını 15 yaşında yandırıb.

Maraqlı fakt isə odur ki, Kastroya ilk siqarı öz atası bağışlayıb. Bu "hədiyyə"dən sonra Azadlıq adasının "sahib"i düz 45 il "tüstülü oyuncağından" əl çəkməyib. O, Kuba siqarlarının xarici dövlətlərə ixrac olunması ilə fəxr edib: "Kuba öz siqarı ilə dünyada məşhurlaşıb ”

Rusiya Federasiyasının ilk prezidenti Boris Yeltsin alkoqol məsələsində bütün sərhədləri keçib.

Sabiq prezident hədsiz dərəcədə spirtli içkilərin aludəçisi olub. Rusiya qoşunlarının Almaniyadan çıxarılması ilə bağlı bu ölkəyə səfəri zamanı Yeltsin o dərəcədə sərxoş olub ki, hərbi orkestrin qarşısından dirijoru kənara itələyərək öz "məharətini" göstərib. İlk dəfə Amerika Birləşmiş Ştatlarına səfərə gedərkən özünü saxlaya bilməyən Boris Yeltsin trapdan düşən kimi tualet əvəzinə təyyarənin arxasına keçərək özünü "rahatlayıb". Təbii ki, onu qarşılamağa gələnlər bunu müşahidə ediblər. Yeltsin isə heç nə olmamış kimi əlini yumadan belə onlarla çox mehribancasına görüşüb. 1995-ci ildə isə Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə olarkən gecədən xeyli keçmiş sərxoş vəziyyətdə olan Yeltsin alt paltarında onun üçün ayrılmış iqamətgahdan çıxmaq istəyəndə mühafizəçilər prezidentin qarşısını kəsib. Sonradan məlum olub ki, Rusiya prezidenti pitsa almaq üçün çıxaraq yolda taksi saxlatdırmaq fikrindəymiş.

XX əsrin bir çox tanınmış digər siyasətçiləri də "tüstü-duman" içərisində fəaliyyət göstəriblər. Elə bəlkə də həmin əsrdə milyonlarla insanın məhvinə səbəb olan müharibələr, münaqişələr, qarşıdurmalar dumanlı başların yanlış qərarlarının nəticəsidir.

# Brejnevin kadr balansı - durğunluq dövrünün görünməyən dalğaları...

Leonid Brejnevin hakimiyyətdə olduğu illər (1964-1982) tarixə "durğunluq dövrü" kimi düşsə də, Kreml daxilində heç də durğunluq və sakitlik hökm sürməyib. Əksinə, Brejnev hakimiyyətdə olarkən gələcək varisin kim olması ilə bağlı Kremldə illərlə gizli mübarizələr gedib. Xüsusilə də 1975-ci ildə baş katibin səhhətində yaranan ciddi problemlər bu mübarizəni daha da qızışdırıb.

Əslində, 1964-cü ildə Xruşovu devirdikdən sonra Brejnevi hakimiyyətə gətirən komanda onun müvəqqəti bir müddətdə lider olacağını düşünüblər. Çünki Brejnev Kremldə o qədər də ciddi bir fiqur kimi, müstəqil siyasət apara biləcək bir siyasətçi kimi qəbul olunmayıb.

Məhz həmin ərəfədə nəzərlər Mixail Suslova daha çox yönəlib. Stalin dövrünün yetirməsi olan Suslov ən təcrübəli siyasətçi olmaqla yanaşı, ən təmiz, heç bir qalmaqallı hadisədə adı hallanmayan və partiyaya ən sədaqətli şəxs sayılıb. Bəlkə də elə buna görə bəzi Siyasi Büro üzvləri onun birinci şəxs olmasını istəməyiblər. Təbii ki, Suslov rejimində işləməyin çətinliyini, bəlkə də mümkünsüzlüyünü dərk ediblər.

Brejnev özü də Kremldəki siyasi atmosferi aydın hiss edib. Mövqelərini möhkəmlədə bilməyəcəyi halda taxtdan qısa bir müddətdə düşəcəyini anlayıb. Bu məqsədlə də o, onu hakimiyyətə gətirən "gücləri" sıradan çıxarmağa başlayıb. Amma Brejnev Suslova toxunmayıb, əksinə, səlahiyyətlərini daha da artırıb.



Maraqlıdır, niyə Brejnev Suslova daha çox səlahiyyət verib, niyə məhz onu partiya xətti ilə ikinci şəxsə çevirib?

Sözsüz ki, ilk növbədə Brejnev öz cəbhəsini gücləndirib, birinciliyə iddialı olmayan Suslov baş katib iddiasında olan digər Siyasi Büro üzvləri üçün böyük maneəyə çevrilib.

Elə 1975-ci ildə varis məsələsi ortaya çıxanda Suslov bəyan edib ki, bu haqda danışmaq hələ tezdir. Həmin ərəfədə Aleksey Kosıginin adı varis kimi hallananda məhz Suslov çəkinmədən bu məsələyə sərt münasibətini bildirib:

"Hökumət öz işi ilə məşğul olmalıdır. Biz partiya rəhbəri seçkilərini müzakirə etməyi hələ ki, düşünmürük, Leonid İliç hələ uzun illər sədaqətlə partiyaya rəhbərliyini davam etdirəcək..."

İddialılar arasında Nikolay Podqornının da adı hallanıb. Onun bu iddiasına isə daha maraqlı münasibət bildirilib. Marşal Ustinov Podqornıya çəkinmədən məsləhət verib:

"Nikolay Viktoroviç, siz əvvəlcə Brejnevə daşıdığınız kağızlardan üstünüzə hopan tozları təmizləyin, sonra yenə də öz xəyallarınıza qayıdarsınız..."

Siyasi Büro üzvləri DTK sədri kimi Yuri Andropovdan çəkiniblər və onun da iddialılar sırasında olduğunu zənn ediblər. Amma Andropov bu məsələdə ehtiyatlı davranıb. Belə ki, DTK şefi Kosıginin və Suslovun daha güclü rəqib olduğunu dərk edərək birincilik iddiasını büruzə verməyib və o, Brejnevi müdafiə edib. Andropov məsələləri zamanın ixtiyarına buraxıb. Düşünüb ki, zaman özü həm Kosıgini, həm də Suslovu sıradan çıxaracaq. Ən azı ona görə ki, Andropov Suslovdan 12, Kosıgindən isə 10 yaş kiçik olub. Elə bu məqsədlə də Andropov sona qədər Brejnevi baş katib kürsüsündə hamıdan çox qoruyub və sonda da öz istəyinə nail olub.

Kəskin xəstəliyindən, 1975-ci ildən sonra hələ 7 il də öz kürsüsünü əldən verməyən Brejnev bütün bu pərdəarxası mübarizələrdən xəbərdar olub. Baş katib qeyri-səmimi siyasətçilərin vəzifə ehtirasını yaxşı hiss edib. "Yumşaq" görünən Brejnev zaman-zaman sərt tədbirlərini həyata keçirib, Kreml oyunlarına hakimlik etməyi bacarıb, rəqiblərini zərərsizləşdirə bilib.

Məsələn, Andropovun fəaliyyətini nəzarətdə saxlamaq üçün o, öz yaxın adamı olan Semyon Sviqunu DTK-a sədrinə birinci müavin təyin edib. Güc strukturlarının birləşməməsi, qruplaşmaması üçün Brejnev Daxili İşlər Nazirliyi ilə Dövlət Təhlükəsizlik Komitələrini, onların rəhbərləri olan Şelokovla Andropovu böyük peşəkarlıqla üz-üzə qoyub, düşmən edib.

Kosıgini zərərsizləşdirmək üçün Brejnev hökumətə partiya nəzarətini gücləndirmək məqsədilə Mərkəzi Komitənin katiblərinin sayını artırıb.

Brejnev müttəfiq respublikaların birinci katiblərinə birbaşa onun özü ilə görüşmək imkanı yaradıb ki, bununla da birin qərarların qəbulu birbaşa baş katibdən gəlib. Həmçinin respublikaların birinci katiblərinin fəaliyyəti haqqında informasiyalar almaq üçün baş katib qapılarını diyar və vilayət Partiya Komitələrinin birinci katibləri üçün də açıq qoyub.

Leonid Brejnevin Mərkəzi Komitədə ən çox inandığı adam isə yuxarıda qeyd etdiyimiz kimi Mixail Suslov olub. Baş katib ona vəzifəsindən də artıq səlahiyyətlər verib. Ölkə üçün mühüm və vacib olan sənədlər Brejnevə təqdim olunanda, o, "görək Suslov bu məsələyə nə deyəcək" deyə, onunla məsləhətləşməyi vacib sayıb.

Beləliklə, Brejnev bu mübarizələrin içində düz 18 il SSRİ-nin sükanını saxlamağa nail olub.

Təqdim edən: İlham Cəmiloğlu

Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 064 (3633) 27 iyul 2023-ci il * İctimai-siyasi qəzet * Qiymәti 50 qәpik

# Gen terapiyası oftalmologiyada yeni səhifə açacaq



**Gen terapiyası oftalmologiyada yeni səhifə açacaq və görmə əngəlli milyonlarla insanın müalicəsi üçün əsas müalicə üsullarından birinə çevriləcək.**

AFP agentliyi xəbər verir ki, Birləşmiş Ştatların Mayami şəhərində gen terapiyası vasitəsi ilə 14 il görmə qabiliyyətini itirmiş Antonio Karvaxal adlı gənci müalicə etmək mümkün olub. Oftalmoloq Alfonso Sabater gəncin gözlərinin iki şəklini çəkib; birində hər iki göz bəbəyini əhatə edən buludlu çapıqlar olub. Göz damcıları vasitəsilə verilən gen terapiyasından aylar sonra çəkilən ikinci şəkildə gözdə çapıq aşkar edilməyib. Hazırda pasiyent yenidən görə bilir.

Gənc oğlan “distrofik epidermoliz bülloza” ilə doğulub və nadir bir genetik xəstəlik bütün bədənində və gözlərində qabarcıqlara səbəb olub. Lakin dünyanın ilk aktual gen terapiyasını sınaqdan keçdikdən sonra onun vəziyyəti yaxşılaşıb. Həkimlər bildirirlər ki, bu müalicə üsulu milyonlarla insanı digər göz xəstəliklərindən müalicə edə biləcək.

Pittsburqda yerləşən klinikanın həmtəsisçisi və tədqiqat üzrə direktoru Suma Krişnan bildirib ki, gözlərinə yenidən işıq gələn xəstənin vəziyyəti həm dərini, həm də buynuz qişaları birləşdirən “kollagen 7” adlı zülalın əmələ gəlməsinə kömək edən gen mutasiyasından qaynaqlanır. “Vijuvek” adlanan müalicə bu genin işləyən nüsxələrini çatdırmaq üçün təsirsizləşdirilmiş “herpes simplex” virusundan istifadə edir.

Dərmanın siçanlarda sınaqdan keçirilməsindən sonra həkimlərdən ibarət qrup ABŞ Qida və Dərman Administrasiyasından “şəfqətli istifadə” lisenziyasını ala bilib. Görmə əngəlli olanların müalicədən sonra bu göz damcısından ayda bir dəfə istifadə etməsi məsləhət görülür. Bundan başqa, sözügedən dərman DNT strukturunu dəyişdirmir və hələ ki, birdəfəlik müalicə vasitəsi sayılmır. Lakin Alfonso Sabater hesab edir ki, gen terapiyası üzrə göz damcıları virusun səbəb olduğu geni dəyişdirərək, potensial olaraq digər xəstəliklərin müalicəsində də istifadə edilə biləcək. Məsələn, ABŞ-da 18 milyon insana təsir edən və ölkənin buynuz qişasının nəqlinin təxminən yarısını təşkil edən “Fuchs” distrofiyasını müalicə etmək üçün fərqli bir gendən istifadə oluna bilər.



## Bu səhər yeməyi insanı arıqladır

**Dietoloq Mike Mosley arıqlamağa kömək edən səhər yeməyini açıqlayıb.**

Mütəxəssisin fikrincə, yumurta ən yaxşı səhər yeməyi seçimidir.

Onun sözlərinə görə, yumurta zülalla zəngindir və demək olar ki, heç bir karbohidrat ehtiva etmir: *"Yumurta qan şəkərinin səviyyəsini yüksəltməməklə yanaşı, uzun müddət toxluq və enerji verir. Yumurtaya həmçinin göbələk və ya ispanaq əlavə etsəniz, orqanizm üçün ikiqat faydalı olacaq.*

*Bundan əlavə karbohidrat səviyyəsi gündə 50 qramdan aşağı olmalıdır. Zülalın, tərəvəzlərin, meyvələrin miqdarını artırsanız, eyni zamanda karbohidratların miqdarını azaldacaqsınız".*

# Tənhalığın kişilərə gözlənilməz təsirləri

**Araşdırmalara görə, tənhalıq kişilərin ruh sağlamlığına zərər vurmaqla yanaşı, sümüklərini də zədələyir.**

Sosial təcrid kişilərin sümüklərinin vəziyyətinə mənfi təsir göstərir.

Bu faktı Skarborodakı (ABŞ) Men Sağlamlıq İnstitutunun tədqiqatının nəticələri sübut edir. Həkim Rebekka Mauntin sosial təcridin psixososial stressin güclü forması olduğunu deyib.

O, həmçinin qeyd edib ki, təcrid və tənhalığın yayılmasını əhəmiyyətli dərəcədə artıran COVID-19 pandemiyasının başlamazdan əvvəl də tədqiqatçılar artan tənhalıq epidemiyasından narahat idilər.



*"Əvvəlki klinik tədqiqatlar göstərdi ki, psixososial stresslər və əlavə psixi sağlamlıq pozğunluqları yaşlı insanlara qeyri-mütənasib şəkildə təsir edən osteoporoz və sınıqlar üçün əsas risk faktorlarıdır",* - Mauntin bildirib.

O, araşdırmada həkimlərin və elm adamlarının dörd həftə ərzində yetkin siçanları təcrid etdiklərini, yəni hər qəfəsdə bir siçan və ya hər qəfəsdə dörd siçan qruplaşdırdıqlarını açıqlayıb.

Alimlər bu zaman müəyyən ediblər ki, sosial izolyasiya kişi siçanlarda sümük keyfiyyətinin əhəmiyyətli dərəcədə azalmasına, o cümlədən sümük mineral sıxlığının azalmasına səbəb olub. Dişilərdə isə bu hiss olunmayıb: *"Təcrid olunmuş erkək siçanlarda azalmış sümük remodelinq əlamətləri göstərilib. Bu da osteoblastların sayının azalması (yeni sümüklər əmələ gətirən hüceyrələr), osteoblastlarla və osteoklastlarla əlaqəli genlərin ifadəsi ilə təmsil olunur. Eyni zamanda, təcrid olunmuş qadınlarda sümük kütləsində dəyişiklik olmadan sümük rezorbsiyası ilə əlaqəli genlərin artdığı müəyyən edilib".*

*Təsisçi:*

Tapdıq Abbas

*Baş redaktor:*

Akif Nəsirli

*Birinci müavin:*

Şahnaz Salehqızı

*İnformasiya şöbəsinin müdiri:*

Röyal Əsədli

*Bölgə müxbirləri:*

Vaqif Cəmiloğlu
Sadıq Sadıqov
Fərman Məhəmməd Əzizli
İqbal Məmmədov
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

*Qəzet 16 fevral 2003-cü ildən çıxır.*

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet "Son Dakika" MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**